www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 dekabr 2016-cı il Cümə axşamı № 291 (6612) Qiyməti 60 qəpik

**Xəbər**

## Xəzər rayonunda dəhşətli qətl və intihar

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycan məsələsi İran hakimiyyətini parçalayıb



İranın rabitə və informasiya texnologiyaları nazirinin Bakıda geniş əməkdaşlıq müzakirələri apardığı vaxtda, bu ölkənin müdafiə naziri hədə bəyanatı verdi

yazısı səh.6-da

### Rusiyanın yeni Qarabağ vədi - reallıq nikbinliyə əsas verirmi?

yazısı səh.11-də

### 2017-ci ilin büdcəsi təsdiqləndi - ekspertlər “çətin olacaq” deyir

yazısı səh.13-də

### Vitse-prezidentlərin təyinatı apreldə ola bilər

yazısı səh.6-da

### Nazirlər bu səbəbdən mətbuat konfransı keçirmir - YAP açıqladı

yazısı səh.13-də

### Dünya güclərinin hədəfində olan iki lider: Putin və Ərdoğan...

yazısı səh.10-da

### Torpaq ayağımızın altından qaçır, səbəb nədir?

yazısı səh.14-də

### 300 müəllimin 0 bal yığmasının müdhiş səbəbləri

yazısı səh.12-də

*Eldar Namazov:*

### “Rusiya başa düşür ki, hərbi balans Azərbaycanın xeyrinə pozulub”

yazısı səh. 8 və 9-da

### “Qara bazar”ı idarə edən “qara əllər”

yazısı səh.3-də

### Psixoloq bayram ərəfələri artan intiharların səbəbini izah etdi

yazısı səh.15-də

## Siyasətdən zərərli çıxan sabiq məmur biznesdə qazanmaq istəyir

# ABBAS ABBASOV XƏZƏRİN O BİRİ TƏRƏFİNƏ KÖÇ EDİR

Sabiq vitse-primyer Mahaçqala limanın alınması ilə bağlı danışıqlarda əsas fiqurlardan biri kimi iştirak edir; əsasən Türkiyədə yaşayan Abbas Abbasovu Dağıstana aparan səbəblər...




yazısı səh.5-də

## Kremlin təhlükəli planı - ABŞ-dan Bakıya yeni xəbərdarlıq

Amerikanın “kölgə kəşfiyyatı”na görə, 2017 Rusiya üçün şans ili olacaq və...; gələn il Azərbaycan qarşısında strateji seçim məsələsi daha ciddi şəkildə dayana bilər; Ankara-Bakı müttəfiqliyi üçün yeni çağırışlar...

yazısı səh.10-da



*Prezident İlham Əliyev:*

### “Hətta artırılmış tariflər qonşu ölkələrdəki tariflərdən bir neçə dəfə aşağıdır”

yazısı səh.3-də



### MTN-in “qara qutusu” Tağı Əhmədovdan danışdı

yazısı səh.7-də



Ziyafət Əsgərov

### Vitse-spiker Eldar Mahmudovun həbsini anons etdi

yazısı səh.7-də

# 29 dekabr 2016

YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016

# Azərbaycanda meyiti necə "diriləcəklər?"

**"Səhiyyə Nazirliyinin Transplantologiya işinin təşkili üzrə Əlaqələndirici Şuranın fəaliyyəti ölkədə meyitdən orqan köçürülməsinə təkan verəcək, respublikada meyitdən orqan köçürülməsi həyata keçiriləcək".**



Bunu APA-ya Səhiyyə Nazirliyinin Transplantologiya işinin təşkili üzrə Əlaqələndirici Şuranın üzvü, Mərkəzi Neftçilər Xəstəxanasının (MNX) cərrahiyyə və orqan transplantasiyası şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımi deyib. Onun sözlərinə görə, Transplantologiya işinin təşkili üzrə Əlaqələndirici Şuranın əsas məqsədi Azərbaycanda transplantologiya işini daha da mükəmməlləşdirməkdən, mərkəzləşdirilmiş şəkildə Səhiyyə Nazirliyinin nəzarəti altında həyata keçirilməsini təmin etməkdən ibarətdir: "Orqan çatışmazlığı olan xəstələr ölkə daxilində və xaricində müxtəlif həkimlərə müraciət ediblər. Nəticədə çox zaman onlar qeyri-peşəkar xidmət görürlər. Şuranın fəaliyyəti ilə əməliyyata, müalicəyə ehtiyacı olan xəstələr vaxtında peşəkar xidmət göstərilməsi üçün tibbi müəssisələrə yönləndiriləcək ki, onlara vaxtında lazımi peşəkar tibbi xidmət göstərilsin".

**Şura üzvü qeyd edib ki, əməliyyata ehtiyacı olan xəstələr siyahıya alınaraq, bu barədə Səhiyyə Nazirliyinə məlumat veriləcək:** "Artıq şura mütəmadi toplanıb, görüşlər keçirir. Müəyyən məsələlər paket halında hazırlanıb, təkliflərlə birgə Səhiyyə Nazirliyinə təqdim olunub. Hazırda ölkədə nə qədər xəstəyə orqan köçürülməsi ilə bağlı bizdə konkret rəqəmlər yoxdur. Yaxın müddət ərzində belə xəstələrin sayı dəqiqləşdiriləcək və şuranın işi barədə ictimaiyyətə əlavə məlumat veriləcək".

## Bakıda antiterror tədbiri - ənənəvi Yeni il konserti təxirə salındı

### Dünyanı cənginə alan teraktlar ölkəmizi də təhdid edir; Azərbaycan hüquq-mühafizə orqanları bir saylı hazırlıq vəziyyətinə gətirilib



**Paytaxtda və ətraf bölgələrdə dekabrın 31-də nəzərdə tutulmuş bayram konsertləri ləğv olunub. Bu qərar dekabrın 27-də Səngəçal qəsəbəsində qaz kəmərində güclü partlayışdan sonra verilib. Ona görə də diqqətdən kənar qalmayıb. Bakıda illərdir ki, dekabrın 31-də Yeni il bayramı ilə əlaqədar Dənizkənarı Milli Parkda ənənəvi konsert proqramı keçirilir. Hətta ötən il Xəzərdə neftçilərin faciəli ölümündən sonra da konsert proqramı təxirə salınmadı. İctimaiyyətdən faciə ilə əlaqədar gələn sərt təpkilər də qulaqardına vuruldu. Bəs bu il nə baş verdi ki, ənənəvi konsert proqramı təxirə salınıb?**

**Dənizkənarı Bulvar İdarəsinin rəis müavini Nazim Məcidov** aznews.az-a açıqlamasında bu suallara aydınlıq gətirməkdən yayınıb. Bildirib ki, bu günə kimi parkda keçirilən konsert layihələrinə Bakı Şəhər İcra Hakimiyyəti cavadehlik daşıyıb: "Konsertin keçirilməməsinin səbəbini də onlar bilir".

BŞİH-dən konsertin təxirə salınması ilə bağlı hər hansı bir açıqlama verilməyib. Ümumilikdə isə bulvarda kütləvi tədbirlərin təxirə salınması başadüşüləndir. Dünyada qlobal xarakter almış terrorçuluğun və ekstremizmin doğurduğu problemlər bizim regionumuzda da tüğyan edir. Türkiyədə tez-tez partlayış olur, Yaxın Şərqdə terrorlar, güllə səsləri səngimir. Azərbaycanın adı tez-tez müxtəlif dövlətlərin xarici işlər nazirliklərinin öz vətəndaşlarına müraciətlərində terror təhdidi və riski yüksək olan ölkələr sırasında çəkilir.

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) son 2 ayda Azərbaycanda 3 İŞİD-çini məhv edib, bir neçəsini həbs edib. Səngəçalda magistral qaz borularında partlayış baş verən ərazinin yaxınlığında bir müddət əvvəl DTX əməkdaşları tərəfindən 2 İŞİD üzvü öldürülmüşdü. Qeyd edək ki, DTX-nin 2 ay əvvəl keçirdiyi əməliyyatla bağlı yaydığı məlumatda zərərsizləşdirilən şəxslərin Azərbaycanda terror əməlləri planlaşdırdıqları xüsusi vurğulanırdı.

Bir müddət əvvəl isə DTX rəisi, general-leytenant Mədət Quliyev mətbuata açıqlamasında Azərbaycanı terror təhdidlərindən qorumaq üçün bütün preventiv addımların atıldığını deyib.

Görünür, Azərbaycan hüquq-mühafizə və xüsusi xidmət orqanlarında elə informasiyalar var ki, kütləvi tədbirlərin təxirə salınması vacib bilinib. İndiyədək ölkəmizin xüsusi xidmət orqanları paytaxt Bakıda və bölgələrdə bir neçə antiterror əməliyyatları həyata keçirib. Lakin dünyada və bölgəmizdə terrorçuluğun artan xətlə inkişafı bu arxayınçılığı istisna edir.

❑ E.MƏMMƏDƏLİYEV

## Səngəçaldakı partlayışın əks-sədası-SOCAR açıqlama verdi

**Dekabrın 27-də Qaradağ rayonu Səngəçal qəsəbəsi ərazisində Qaz Emalı Zavodundan Səngəçal Baş Qurğularına gedən magistral qaz kəmərində baş vermiş hadisənin səbəbləri araşdırılır.**

SOCAR-dan "APA-Economics"ə verilən məlumata görə, ilkin baxış bir neçə versiyanı nəzərdən keçirməyə imkan verir: "2002-ci ildə tikilib istismara buraxılmış qaz kəmərində baş verən qəzanın mümkün səbəbləri arasında qaynağın və ya boru materialının keyfiyyətinin aşağı olması, yaxud kəmərin keçdiyi ərazinin aqressiv və sürüşkən zonada yerləşməsi nəticəsində aşınmaya məruz qalması ehtimalları nəzərdən keçirilir. İlkin baxış qəzanın texnogen xarakter daşıdığını təsdiq edir".

Araşdırma işləri yekunlaşdıqdan sonra nəticələr barədə əlavə məlumat veriləcək.

## Ombudsman Elmira Süleymanova qərar gözləyir

**Azərbaycanın insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova üçüncü müddətə bu vəzifəyə namizədliyinin irəli sürülüb-sürülməyəcəyi məsələsinə münasibət bildirib.**

APA-nın xəbərinə görə, E. Süleymanova bu məsələ ilə bağlı qərarı gözlədiklərini deyib.

Qeyd edək ki, E. Süleymanova ikinci müddətə 2010-cu ilin martında insan haqları üzrə müvəkkil seçilib. Ombudsmanın səlahiyyət müddəti 7 ildir.

## Rusiya və Türkiyə Suriyada razılığa gəldi

**Türkiyə və Rusiya Suriyada münaqişə tərəflərinə təqdim olunacaq hərtərəfli atəşkəs planını razılaşdırıblar. Bu barədə "Anadolu" agentliyi hökumət mənbələrinə istinadən xəbər yayıb.**

Planın Suriyadakı münaqişə tərəflərinə təqdim olunması nəzərdə tutulur. Plan Hələbin şərqində atəşkəs barədə razılaşma əldə edildikdən sonra bütün Suriya ərazisinə şamil olunacaq. Plana əsasən atəşkəs rejimi dekabrın 29-u saat 00:00-dan etibarən qüvvəyə minəcək.

Atəşkəs rejimi terror təşkilatlarına şamil olunmayacaq.

Dayanıqlı atəşkəs əldə olunduqdan sonra Suriya hökuməti və müxalifət Türkiyə və Rusiyanın dəstəyi ilə Astanada münaqişənin həlli ilə bağlı siyasi müzakirələrə başlayacaq.

## Dörd keçmiş nazir FETÖ ilə əlaqələndirilir

**İstanbulda keçmiş nazirlər Bülent Arınç, Hüseyin Çelik, Suat Kılıç ve Sadullah Ergin haqqında hazırlanan şikayət dosyesi Ankara Baş Prokurorluğuna göndərilib.**

Modern.az Türkiyə mediasına istinadən xəbər verir ki, vəkil Burak Bekiroğlunun İstanbul Cümhuriyyət Baş Prokurorluğuna verdiyi şikayət ərizəsində 4 keçmiş nazirin Fətullah Gülənin "hizmət" şəbəkəsi ilə əlaqəli olduqları iddia edilir.

Bundan əlavə, bu dörd nazirə çevrilişə zəmin hazırlamaq ittihamı yönəldilir.

Ərizədə dörd nazirin evlərində, iş yerlərində axtarış aparılması, cib telefonlarına əl qoyulması tələb olunub.

Ərizədə "Şübhəlilərin 15 iyul terror hücumunda hər hansı rolları varmı, bunun təsbiti lazımdır" deyilir. Ərizə ilə bağlı İstanbul Prokurorluğu bu istintaq haqqındakı qərarını verib.

İstintaq işi haqqında "görevsizlik" qərarı verilərək Ankara Prokurorluğuna göndərilib.

## Əmək pensiyaları haqqında qanun layihəsi gələn ilə qaldı



**Azərbaycanda peşə sahələri üzrə əmək pensiyasına görə yaş həddinin artırılması, pensiya sistemi ilə bağlı digər düzəlişləri özündə əks etdirən "Əmək pensiyaları haqqında" Qanuna əlavə və dəyişikliklər layihəsi Milli Məclisə daxil olub.**

Məlumata görə, qanun layihəsinin bu ilin sonunda müzakirəyə çıxarılması nəzərdə tutulsa da, sənədin müzakirəsinin vaxtı dəyişdirilərək parlamentin 2017-ci il yaz sessiyasında müzakirəyə çıxarılması planlaşdırılır. (APA) Daxil olan layihədə hərbçilərlə bağlı əmək pensiyası üçün yaş həddinin artırılması məsələsi əks olunmayıb. Digər bütün peşələr üzrə pensiyaya çıxmaq üçün tələb olunan iş stajı isə müvafiq olaraq artırılır. Layihədə ümumilikdə pensiya yaşının artırılaraq əmək pensiyaları üçün tələb olunan yaş hədləri ilə diferensiallaşdırılması nəzərdə tutulur.

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov** da "Yeni Müsavat"a bildirdi ki, bu məsələ ilə bağlı fikirlər səsləndiriləndən sonra o, rəsmi qurumlara müraciət edib: "Bildiyim qədər o məsələ geri qaytarıldı. Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə məsələləri komitəsinin üzvü Zahid Oruc da bildirdi ki, bununla bağlı layihəyə dəyişiklik olunub. Bildiyimə görə, hərbçilərlə bağlı 20 illik müddət olduğu kimi qalır. Ancaq 20 ildən sonra hər ilə görə məvaciblərinin üstünə 3 faiz əlavə olunurdusa, bu qanunun qəbulundan sonra 2 faiz hesablanacaq. Bu da prinsip etibarilə hərbçiləri ciddi narahat etmir. Hər halda, 25 il məsələsi fonunda normal yanaşmadır".

**Ü.Cəfərovun sözlərinə görə, sovet dövründə hərbçilərin 20 il xidmətdən sonra təqaüdə çıxması hərtərəfli ölçülüb-biçilərək qərar verilmişdi:** "20 il işlək qabiliyyəti ilə bağlıdır. Orqanizmin fiziki göstəriciləri var. Təbii ki, 20 ildən sonra orqanizmdə əvvəlki illərlə müqayisədə fərqlər yaranır. Bunlar vaxtilə hesablanıb. Hesab edirəm ki, pensiya islahatı güc strukturlarına çox böyük ziyan vura bilər. Ona görə də bu məsələdə ehtiyatlı olmaq lazımdır".

Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu isə qəzetimizə bildirdi ki, dekabrın 30-dakı plenar iclasda bununla bağlı müzakirələr nəzərdə tutulmayıb. Xidmət rəhbəri qeyd etdi ki, Milli Məclisin payız sessiyasının sonuncu iclasının gündəliyində 23 məsələ var və əmək pensiyaları ilə bağlı məsələ onların arasında yoxdur.

❑ Cavid TURAN

"Qaya Mətbuat Yayımı" MMC!

- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.



Gennadi Axramoviç

## Belarus səfiri həbs olunan bloggerin ekstradisiyasından danışdı

**Belarusun Azərbaycandakı səfiri Gennadi Axramoviç blogger Aleksandr Lapşinin Azərbaycanın müraciəti əsasında ölkəsində saxlanması və ekstradisiyasına dair danışıqların getməsi ilə bağlı məsələyə münasibət bildirib. APA-nın məlumatına görə, səfir müraciət qanuni cəhətdən əsaslı olduğu halda A. Lapşinin Azərbaycana təhvil verilməsinin istisna olmadığını deyib.**

"Müraciət qanunidirsə, insan açıq-aşkar qanun pozuntusuna yol verib və onun günahı sübut olunubsa, o zaman Belarus tərəfi müraciət edənin istəyinə müsbət reaksiya verir", - deyə səfir bildirib.

G. Axramoviç diplomatik təcrübəsində bir neçə dəfə belə halla üzləşdiyini də söyləyib.

Ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan Aleksandr Lapşin işğal olunmuş Azərbaycan ərazilərinə qanunsuz səfərlərdə, işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən rejimin "müstəqilliyini" dəstəkləməkdə ittiham olunur.

Belarus Respublikası hüquq-mühafizə orqanlarının həyata keçirdikləri tədbirlər nəticəsində A.Lapşin saxlanılıb.

## "Azərbaycan" Nəşriyyatı icarə haqlarını 36 faiz artırdı

"Azərbaycan" Nəşriyyatının binasında yerləşən redaksiyalar və digər təşkilatlar üçün nəzərdə tutulmuş icarə haqları artırılıb.

"Report"un məlumatına görə, nəşriyyat bununla bağlı elan yayıb. Elan mətnində qeyd olunub ki, son vaxtlar respublikada enerjidaşıyıcılarının qiymətlərinin kəskin artması səbəbindən "Azərbaycan" Nəşriyyatı redaksiya və digər təşkilatlarla bağlanmış kommunal xərclərin ödənilməsi haqqında müqavilə qiymətlərinə dəyişiklik etmək məcburiyyətindədir.

Bununla əlaqədar, gələn ilin yanvar ayının 1-dən etibarən kommunal xərclərə görə müqavilə qiymətləri 36 faiz artırılacaq. Gələn il üçün kommunal və istehsal üzrə müqavilələr nəşriyyatın iqtisadiyyat şöbəsində təqdim olunur.

Nəşriyyatın rəhbərliyi həmin tarixdən etibarən kommunal xərclərini yeni qiymətlərlə ödənilməsini xahiş edir. 2017-ci il üçün müqavilələr bağlanana qədər debitor borcların ödənilməsi vacibdir.

YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016

# Prezident kommunal xərclərin artırılmasından danışdı

## Dövlət başçısı "hətta artırılmış tariflərin səviyyəsi qonşu ölkələrdə mövcud olan tariflərdən bir neçə dəfə aşağıdır" dedi

**Dekabrın 28-də prezident İlham Əliyev Bakıda 1 saylı "ASAN kommunal" mərkəzinin açılışında iştirak edib və Biləcəri stansiyasında səyyar "ASAN qatar"la tanış olub.**



Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov mərkəzdə yaradılan şərait barədə dövlət başçısına məlumat veriblər.

Pilot layihə çərçivəsində 1 saylı "ASAN kommunal" mərkəzi paytaxtın Nəsimi, Nərimanov və Binəqədi rayonlarında qeydiyyatda olan 653 600 vətəndaşa xidmət edəcək. Mərkəzdə 3 qurum - "Azərişıq" və "Azərsu" Açıq Səhmdar cəmiyyətləri, həmçinin "Azəriqaz" İstehsalat Birliyi tərəfindən vətəndaşlara 45 növ xidmət göstəriləcək.

**Prezident çıxışında deyib ki, "ASAN xidmət" sisteminin yaradılması ictimai xidmətlər və ictimai münasibətlər sahəsində inqilab idi:** "Bu, özlüyündə böyük bir irəliləyiş, böyük bir yenilikdir. Ancaq "ASAN xidmət"in təsiri təkcə bundan ibarət deyil, bu mərkəzlərdə göstərilən xidmətlərlə məhdudlaşmır. "ASAN xidmət", ümumiyyətlə, vətəndaş-məmur münasibətlərinə yenilik gətirdi, rüşvətxorluğa qarşı mübarizədə bizə daha da böyük güc verdi. Yeni göstərdi ki, rüşvətxorluqla mübarizə aparmaq və qələbə çalmaq da mümkündür. Bax, "ASAN xidmət"in mənası və əhəmiyyəti bundan ibarətdir. 2018-ci ildə ölkəmizdə, yeni rayonlarda 10 mərkəz yaradılacaq. Ondan sonra bu proses daha da sürətlə gedəcək" deyə, o vurğulayıb.



**Prezident "ASAN viza"nın yaradılması barədə də danışıb:** "Biz çalışırıq ki, Azərbaycana daha çox turist gəlsin. Həm ölkəmizi tanısın, həm də ölkəmiz haqqında düzgün məlumat alsın. Ancaq dəfələrlə eşitmişdim ki, Azərbaycana gəlmək üçün viza almaq böyük problemdir. Çünki vizalarla bağlı vəziyyət bizi qane edə bilməzdi. Həm pozuntular kifayət qədər çox idi, həm əsassız tələblər irəli sürülürdü. Ümumiyyətlə, Azərbaycana gəlmək üçün insanlar gərək aylarla növbə tutaydılar, gedib başqa şəhərlərdə bizim səfirliklərdə, konsulluqlarda növbədə dayanaydılar, hələ onlara viza verilib-verilməyəcəyi bəlli deyildi. Ona görə bu məsələni birdəfəlik həll etmək üçün "ASAN viza" yaradıldı və indi istənilən vətəndaş üç gün ərzində Azərbaycana gələ bilər. Mənə verilən məlumata görə, bu il, - hətta "ASAN viza" hələ işə düşməmiş, - Azərbaycana gələn turistlərin sayı təxminən 10 faiz artıb. Bəzi ölkələr var ki, o ölkələrdən gələnlərin sayı 30-40 dəfə artıb. 2017-ci ildə bu proses daha da sürətlə gedəcək".




**Prezident kommunal xərclərlə bağlı da danışıb.** "İmkanlı, varlı insanlar, böyük evlərə, villalara sahib olan vətəndaşlar daha çox ödəməlidirlər. Kiminsə imkanı azdır və ya məhduddur, yaxud da ki, orta təbəqənin nümayəndələridir, onlara dövlət daim güzəştlər edir. Hətta artırılmış tariflərin səviyyəsi qonşu ölkələrdə mövcud olan tariflərdən bir neçə dəfə aşağıdır. Buna baxmayaraq, yenə də qeyd etmək istəyirəm, biz növbəti addımı ataraq sosial müdafiəni daha da gücləndirmişik. Bu, sosial ədalət prinsipidir. Bildiyiniz kimi, bu yaxınlarda mənim göstərişimlə kommunal tariflərin həcminə düzəlişlər edildi. Bu da sırf sosial yanaşma idi. Çünki növbəti düzəlişdən sonra artıq vətəndaşların 75-80 faizi işıq və qaz pulunu köhnə tariflərlə ödəyəcək. Yəni bu, o deməkdir ki, əhalimizin əksəriyyəti bu dəyişikliyi hiss etməyəcək, əksinə, görülmüş tədbirlər nəticəsində vətəndaşların sosial müdafiəsi gələn il daha da möhkəmlənəcək", - deyə prezident vurğulayıb.

# Bakı Avropa İttifaqı ilə birgə saziş hazırlayacaq

## Elmar Məmmədyarov: "Sazişin hazırlanması üzrə tərəflər nümayəndə heyətləri formalaşdırır"



**"Avropa İttifaqı Şurası artıq Azərbaycanla Avropa İttifaqı arasında saziş layihəsinə dair rəsmi danışıqlara başlamaq üçün mandat verib". Xarici işlər naziri Elmar Məmmədyarov bu fikirləri AzərTAc-a müsahibəsində deyib. Nazirin sözlərinə görə, hazırda sazişin hazırlanması üzrə tərəflərin nümayəndə heyətlərinin tərkibi formalaşdırılır. "2017-ci ilin əvvəlindən etibarən intensiv danışıqlar başlanılacaq"-deyə, E. Məmmədyarov əlavə edib.**

Qeyd edək ki, ötən ilin sentyabrında Avropa Parlamentinin Azərbaycanla bağlı qətnaməsindən sonra Milli Məclis qurumla əməkdaşlığın dayandırılması ilə bağlı qərar qəbul etmişdi. Qərarda Azərbaycan Nazirlər Kabinetinə Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramında iştirakın məqsədəuyğunluğu məsələsinə yenidən baxmaq tövsiyə olunmuşdu. Həmçinin Nazirlər Kabinetinə tapşırılmışdı ki, "Azərbaycanın rəsmi şəxsləri barəsində hər hansı sanksiyaların tətbiq ediləcəyi təqdirdə qatı anti-Azərbaycan mövqeyi nümayiş etdirən Avropa Parlamenti üzvlərinin və Avropa İttifaqı qurumları rəsmilərinin Azərbaycana girişinin qadağan edilməsi məsələsini nəzərdən keçirsin".

Lakin bu il Avropa Parlamentinin böyük bir nümayəndə heyəti Bakıya gəldi və körpülər yenidən bərpa olundu. Bununla yanaşı, Azərbaycan Ukrayna və Gürcüstan kimi Rusiyanın qəzəbinə gəlməməkdən ötrü Qərb təsisatları ilə əməkdaşlıqda ehtiyatlı davranır. Düzdür, artıq Tiflis və Kiyev Avropaya vizasız gediş-gəlişə də nail olmaq üzrədir. Ancaq istənilən halda bu əməkdaşlığın Rusiya tərəfindən sərt reaksiya, hətta sürprizlə qarşılanacağı da istisna olunmur.

**Politoloq Hikmət Hacızadə "Yeni Müsavat"a bildirdi ki, şimaldan hər hansı sürpriz gözləmir:** "Bu proyektlər hərbi və ya hansısa təhlükəsizliklə bağlı deyil. Odur ki, Rusiya Federasiyası tərəfdən problem olmamalıdır".

**Ekspertin sözlərinə görə, ola bilər ki, viza məsələsi müsbət həllini tapsın. Həmçinin neft - qaz sferasında iqtisadi layihələr gerçəkləşsin. H.Hacızadə əlavə etdi ki, rəsmi Bakı ilə Qərb arasında gərginlik qalır:** "O da insan haqlarının ölkəmizdəki vəziyyəti ilə bağlıdır. Lakin bununla bağlı məsələlər hələ ki həll olunmur. Siyasi məhbuslar da var. Avropa Məhkəməsi tərəfindən günahsız həbs olunmuş tanınmış adamlarla bağlı qərarlar çıxarılıb. Hələ də onları azad etmirlər. Əsas problem budur. Amma görünür ki, bu problemlər Avropanı indiyə kimi bizdən qaz - neft almaqdan çəkindirməyib".

❑ **Cavid TURAN**

# "Qara bazar"ı idarə edən "qara əllər"

## Ekspert deyir ki, banklardan başqa kütləvi şəkildə "qara bazar"a valyuta çıxara biləcək ikinci bir institut yoxdur



**Ölkədə manatın Mərkəzi Bank tərəfindən elan edilən məzənnəsi artıq əhəmiyyətini itirib. Dollar elan edilən məzənnədən 10-12 faiz baha qiymətə "qara bazar"da satılmaqdadır. Ölkə bankları isə ümumiyyətlə, dollar satışını dayandırıblar. Ekspertlər bildirirlər ki, durum yuxarıdan idarə olunur, Mərkəzi Bank da "qara bazar"ı yaradaraq, idarə edir. Banklar da dolları elan edilən məzənnə ilə deyil, "qara bazar"dakı yuxarı məzənnə ilə satmaqda maraqlıdırlar. Daha çox burada payı olan isə dövlət banklarıdır.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində "qara bazar"ın formalaşması və fəaliyyət göstərməsi ölkənin ayıbı sayılır: "Normal iqtisadi modeli, normal bank sektoru olan ölkədə "qara bazar" formalaşa bilməz. Bu, mümkün deyil. "Qara bazar"ın formalaşdığı və bu günə qədər fəaliyyət göstərdiyi ölkələrə baxdıqda, görürük ki, bank-maliyyə sistemində problem olan ölkələrdir. Özbəkistan və Türkmənistan kimi yaxın qonşularımız, keçmiş tariximiz olan ölkələrdə "qara bazar" bu gün də fəaliyyət göstərir. Bunun əsas səbəbi bank-maliyyə sisteminin normal fəaliyyət göstərməməsi, iqtisadiyyatın normal institutlaşmasıdır. Hətta sistemləri bizə çox bənzəyən Rusiya və Qazaxıstanda belə "qara bazar" formalaşmadı. Hökumət və Mərkəzi Bank buna imkan vermədi. Valyutaya çıxış imkanlarını məhdudlaşdırmadı. Bu tələb və təklif hər yerdə keçərlidir, keçmiş Sovet İttifaqında belə bu qaydalar işləyirdi. Orada cəzalar sərt olmasına baxmayaraq, "qara bazar" var idi. İndi də tələb və təklif qaydalarına uyğun olaraq, Azərbaycanda "qara bazar"ın formalaşmasını müşahidə edirik. Dollara tələbat var, banklar dollar satmırsa və dollara çıxış imkanları məhduddursa təbii ki, "qara bazar" formalaşmalı idi. Heç bir inzibati qaydada tənzimləmə, hüquqi-mühafizə orqanları vasitəsilə tənzimləmə "qara bazar"ın qarşısını ala bilməyəcək. Necə ki, biz bunu bu gün də görürük. "Qara bazar"a dolların çıxış imkanlarına baxmaq lazımdır. Azərbaycanda "qara bazar"a dollar haradan çıxırsa, deməli, həmin çevrələrdən də bu bazarın olmasına bir maraq var. Təbii ki, banklardan başqa kütləvi şəkildə "qara bazar"a valyuta çıxara biləcək ikinci bir institut yoxdur. Fərdi şəxslər "qara bazar"a kiçik həcmdə valyuta çıxara bilər. Söhbət bir neçə min dollardan gedə bilər. Böyük məbləğdə valyuta almaq istəyənlər varsa, təbii ki, bu, tələbatı ödəyəcək ünvan banklar ola bilər. Banklardan da ən çox hansının valyutaya çıxış imkanları varsa, deməli, "qara bazar"a da həmin banklar təsir göstərir. Bu da Azərbaycanda dövlət banklarıdır, yəni bunların valyutaya çıxış imkanları daha çoxdur. Hüquq-mühafizə orqanlarının apardığı son bəzi işlər də buna işarə verir. Təbii ki, Mərkəzi Bank əgər valyuta satışına 4 faizlik bir sərhəd qoyubsa, bu sərhədi aşmağın yeganə yolu "qara bazar"dır. Dollar alıcısı varsa, tələbat yaranıbsa, banklar Mərkəzi Bankın 1,76 məzənnəsinin üzərinə 4 faiz qoyub satmaq istəmirlər. "Qara bazar"a valyuta çıxarmaq daha sərfəlidir. Buna görə də indiki "qara bazar"ın qaydaları formalaşıb. İnzibati qaydaya, hüquq-mühafizə orqanlarının köməyi ilə bu "qara bazar"la mübarizə etməyi düşünürlər. Hətta gülünc bir durum yaranıb. 200-300 dollar alıb-satan insanlara qarşı əməliyyat keçirirlər. Bu da tamamilə yersiz və gülünc bir hərəkətdir".

Qeyd edək ki, ekspertlər baş verənlərdən Mərkəzi Bankın və həmçinin Maliyyə Nazirliyinin xəbərdar olduğunu bildirirlər. Ortada ciddi iddialar var və nəticə isə odur ki, dollar "qara bazar" vasitəsilə daha da bahalaşdırılır. Ekspertlərin fikrincə, "qara bazar"ın formalaşması hər bir ölkə üçün ciddi problemdir və maliyyə-bank sistemində yaşanan xroniki problemlərin üzə çıxmasıdır. "Qara bazar"a külli miqdarda valyutanın daxil olması isə sadə vətəndaşların işi deyil. Ekspertlərin fikrincə, bu mexanizmlərin yaranmasının səbəbləri araşdırılmalıdır.

❑ **Röya RƏFİYEVA**







# Vladimir Putin kimdir - Rusiya prezidentinin gizli-aşkar tərəfləri

## O, qalibdi. İndi bunu bütün dünya yana-yana etiraf edir...

**Moskva, Beskudninskiy bulvar ev 6/3 ünvanında yerləşən müasir dizaynlı dükan, Rusiyada müştəri baxımından heç vaxt korluq çəkməyən nadir dükanlardan biri, bəlkə də ən birincisidir. "Putinin portretləri" adlı bu dükanda gör neçə illərdi ölkə prezidenti Vladimir Vladimiroviç Putinin, nə az nə çox, yüzə yaxın portreti satılır.**

Müştərilər arasında birinci yerdə Volqa boyu kənd sakinləridi, ikinci yerdə Dağıstan güc strukturları, üçüncü yerdə isə Ramzan Kadırovun şəxsi qvardiya üzvləri.

Qoltuğuna Putinin şəklini vuran müştərilər arasında son zamanlar xarici qonaqlar - ABŞ-dan, Almaniyadan, İsraildən olan turistlər də nəzərəçarpacaq dərəcədə çoxalıb.

***

Rusiya prezidentinin kim olduğunu, hansı məzhəbə qulluq etdiyini öyrənmək istəyirsinizsə, gərək mütləq və mütləq bu zəngin foto-qalereyanı diqqətlə nəzərdən keçirəsiniz. Fotoqrafların bu sahədəki gərgin əməyinə ancaq həsəd aparmaq olar. Putini öz fotoobyektivlərindən kənarda bir saniyə belə saxlamayan bu peşəkarlar ölkə prezidentini yüzədək fərqi rakursdan görməyi, şükür, bacarıblar. Ancaq bu portret qalereyası, məncə hələ tam deyil. Vladimir Vladimiroviçin əsas xüsusiyyətini - solaxaylığını əks etdirən vacib foto, bəli, bu siyahıda hələ ki yoxdu. Varmı belə foto, yaxud onu gizləyirlər? Bu barədə indi əlavə heç nə deyə bilmərəm.

Putinin solaxaylığı, "A.Lange & Sohne Tourbograph", "Patek Philippe Perpetual Calendar" markalı qol saatlarını həmişə sağ biləyində gəzdirməyi, bəli, barəsində bəzi fantastik fərziyyələrə xeyli qol-qanad verib. Axır vaxtlar bəzi Kreml məmurları Putinə baxıb öz qol saatlarını sağ biləklərinə taxmağa meylləniblər. Xahiş edirəm, gülməyin. İndi bu işarə, Putin komandasına məxsusluğun bir növ gizli əlaməti, rəmzi də sayılır Kreml dəhlizlərində. Çistopol saat fabriki bu trendi elə havadaca tutmağı bacarıb. Sağ biləkli saat həvəskarları üçün xüsusi "Kremlovskie" seriyasını satışa buraxıb. Putin komandasının bütün üzvləri - İqor Seçindən tutmuş S.Y.Narışkinə qədər, hamı bu saatları deyilənə görə indi öz sağ biləyində gəzdirir.

"Putinin əsas sirri" deyəcəyimiz bu məxfi qrafaya sadəlövh yanaşmanın qəti tərəfdarı deyiləm. Əslinə qalsa, Putin solaxaydı. Ancaq o, daha çox ambidekstrdı *(bu tip adamlar beynin həm sağ, həm də sol yarımkürələrini eyni vaxtda işlədə bilirlər)* - ikiəllidir, nəinki sırf klassik solaxay. Qısası, Barak Obama da ambidekstrdı, Vladimir Vladimiroviç də. Burda, necə deyərlər, daş qayaya - Obama Putinə rast gəlib. Su axıb, öz çuxurunu tapıb.

***

Ambidekstrlar isə yazılmamış qanundu, elə lap uşaqlıq günlərindən başlayaraq həmişə xüsusi xidmət qurumlarının ciddi nəzarəti altında fəaliyyət göstərirlər. Beləlləri adətən elə uşaq bağçalarından, məktəblərdən qeydə alınaraq düşürlər məxfi qurumların siyahısına. Hər iki beyin yarımkürəsi dayanmadan çalışan bu cür adamların ən ağır tapşırıqları, öhdəlikləri yerinə yetirmək istedadı, görünür, Putində də elə lap uşaqlıq günlərindən özünü büruzə verib. Xəfiyyələr bu xəbəri lazımi ünvana ötürdükdən sonra Putin barəsində xüsusi qovluq açılıb. Əvvəlcə o, düşüb anonim idarəetməyə. Özü də bilməyib kimlər onu karyera zirvəsinə istiqamətləndirirlər. Kimlər onu ən çətin imtahanlara məruz qoyub, qəfildən xilaskar cildində qarşısında peyda olurlar.

Putinin bu anonim qüvvələrlə ilk tanışlığı, məncə, təhsil aldığı Leninqrad Universitetinin son kurslarından, 1984-85-ci illərdən başlayır. Ayrıca xüsusi təyinatla KQB-yə işə göndərilən bu ikiəlli ambidekstr tezliklə ona bəslənən ümidləri tam doğrultmağı bacarır. Oxtadakı 401 saylı xüsusi məktəbdə əməliyyatçı sənətinin bütün incəliklərinə yiyələndikdən sonra Putin dönüb olur əsl əks-kəşfiyyatçı.

Vaxtilə eyni ünvanlardan Heydər Əliyevin də keçməyi, görünür, hələ o zamanlar Putinin çekist diqqətindən kənarda qalmayıb. Heydər Əliyevlə Putin arasında sonradan yaranacaq isti münasibətlərdə özünə az əhəmiyyət kəsb etməyib. Əməliyyatçı təhsilini sonradan Andropov adına Ali KQB məktəbində təkmilləşdirən o vaxtkı Putin barəsində həmkarı Yuriy Şves deyib: **"Meşənin lap dərinliklərində yerləşən bu tam qapalı, hasarlı ərazidə Putin düz bir il qaldı. Putin kimilərə bu ünvanda əslinə qalsa heç nə öyrətmirdilər. Burda onların özünü öyrənirdilər bəlkə".**

Kiçik haşiyə - xüsusi təyinatlıların dilində, yadda saxlayın, buna "Alfa-proqramlaşdırılma" da deyilir. Xüsusi agentlər adətən əlifba sırasıyla ALFA, BETTA, QAMMA, DELTA kateqoriyaları üzrə dörd yerə bölünürlər. Moskvanın Olimpiya şəhərciyindəki hotellərin eyniadlı olması da təsadüfü deyildir. Putin kimi əlaçısansa, buyur, İzmaylova hotellərinin ALFA korpusunda həmişə yerin var. Yox, əgər Anna Çapman kimi seks-agentsən, həəə, qalacağın yer mütləq BETTA korpusunda olacaq.

Düz bir il sürən qapalı, ağır tədris proqramlarından sonra Putin məhz İzmaylovdakı ALFA korpusuna gəlib qeydetmə masası üzərinə öz təzə pasportunu atır. Növbətçi qız müştərini diqqətlə süzüb, pasportdakı Platov kəlməsinə ağız büzür... əl atır divardan asılmış açarların birinə...

Casus texnologiyalarına bu ünvanlarda tam yiyələnən Putin, bəzi iddialara görə orda "Platov" kod ismini qazanır, digər iddialara görə ən ciddi "boz güvə" ləqəbini. Maskalanıb gizlənməyi bacaranlara verilən bu yüksək ad, məndə əsla təəccüb doğurmasa da, görürəm sizdə neyçünsə gülüş hissləri doğurur. Məncə, nahaq yerə.

Əvvəla, siz səhv edirsiz. İngiliscədə "mole" sözü porsuq, köstəbək mənasını verir, bilin. İkincisi, kəşfiyyatçılar arasında "mole" kod ismi, ən məxfi agentlərə verilən çox hörmətli, peşəkar ləqəbdir. Hər adam güvə, köstəbək, porsuq kimi gizlənməyi, gözəgörünməz olmağı bacarır deyirsiz, həəə? Yoxxxxx....

Bacaranları, yadda saxlayın, təcili qeydiyyata alıb desant kimi xaricə yollayırlar. "Güvə"lər, "mole"lər adətən ən qapalı dolablara girib ordakı yun paltarları yavaşca didib gəmirirlər.

Rusiyadakı növbəti prezident seçkilərindən əvvəl "Zavtra" qəzetində Putinə həsr edilmiş məqalənin "Triumf Moli" adlandırılmağı da, məncə, qəti təsadüfü deyildir. Məqalənin müəllifi Proxanovu cibinizə qoymayın, xahiş edirəm. Məqaləni yazanda o, özbaşına deyildi. O, məhz Kremldən gələn xüsusi göstərişlə bu məqaləni qələmə alıb, ona qəşəng, çox mənalı ad verib.

***

Qısası, alman dilinə, casus fəndlərinə tam yiyələnən bu "yoldaş Platov" Şərqi Almaniyanın Drezden şəhərindəki KQB dayaq nöqtəsinin rəhbəri təyin olunub, başlayır orda sakit fəaliyyətə. Xonekker rejimi 1989-cu ildə laxlarkən yoldaş Platov özünü itirmir əsla. Etirazçılar qarşısına şəxsən özü çıxıb arxasındakı KQB iqamətgahını dağılmaqdan qoruyur.

Pivədən vurub ayaq üstə güclə duran izdihama təmiz almanca müraciət edir:

- Mən zabitəm. Tapançamın darağındakı 12 güllədən sonuncusunu özümə saxlayacam. Qalanları sizindi...Atacağam...Başqa yol yoxdu. Mən zabitəm.

Yoldaş Platov, üzr istəyirəm Putin, bunları deyərək kürəklərini izdihama tərəf çevirib sakitcə geri - öz iş yerinə qayıdır. Qanrılıb geri baxanda görür ki, bayaqkı gur izdihamdan həyətdə bircə nəfər belə qalmayıb.

***

Platov pasportu ilə xaricdə yaşamaq perspektivi bu vaxt Putinə çox darıxdırıcı görünür. O, Moskvaya, Lyubankaya qayıdıb casus pasportunu arxivə təhvil verir. Doğma pasportunu geri alıb, bir müddət inana bilmir ki, əslində o Platov deyil, Vladimir Vladimiroviç Putindir. Həqiqətə alışmaq, öz həqiqi məninə qayıtmaq, bəli, bir müddət vaxt istəyir cavan, kasıb Vladimirdən. SSRİ-nin süqutunu sonralar "zəmanəmizin ən böyük fəlakəti" kimi qeyd edən Putin, məncə, bu fəlakəti sözün əsl mənasında tam yaşayıb. Düzgün də dəyərləndirib bu ağlasığmaz aqibəti.

Özünə qayıtmaq vətənə, doğma kasıb yuvaya - Pitera qayıtmaqdan start götürüb axır Smolnıdakı təzə iş yeri ilə nəticələnir. Casusluğu buraxan Putin, Piter meri Aleksandr Sobçakın xarici iqtisadi-siyasi əlaqələr üzrə müavini vəzifəsini qazanıb başlayır biznesmenlərə öz təzə vizit kartlarını paylamağa.



МЭРИЯ САНКТ-ПЕТЕРБУРГА

ПУТИН
Владимир Владимирович

Заместитель мэра по международным и внешнеэкономическим связям
Председатель комитета по внешним связям мэрии

193060, Санкт-Петербург, Смольный
Тел. 278-11-13, 278-12-04
Телекс 121465 LSWS SU
E-mail: aag a cfea.ecc.spb.su
Факс 278-16-33

Belə vizit kartların birini təsadüfən öz arxivimdə aşkarlayıb indiyədək özümə sual verirəm - hardan gəlib düşüb o mənim arxivimə? Necə olub bu kartı mənə uzadan əli unutmuşam? Hə....beləsinə ingiliscə "mole" deməyəsən, bəs nə deyəsən axı?

1991-ci ilin sonunda Smolnı üzərindəki Lenin yadigarını - qırmız sovet bayrağını, aşağı endirib əvəzində üç rəngli rus bayrağını havaya qaldıran da məhz elə həmin bu əldi. Putinin məxfi, gizli, gözəgörünməz əli.

Kimsənin görmədiyi, seçmədiyi bu solaxay əli sonralar Rusiya prezidenti Boris Yeltsin görüb dəyərləndirir. Piterdə açılmış ilk valyuta borsasının kuratoru olmaq, xarici kapitallı ilk bankı - "BNP-Drezdner Bank-ı (Rossija)" Neva sahillərində yaratmaq təcrübəsi o vaxtkı Putinə əvvəlcə Smolnı kabinetlərinə yol açır, sonra qırmızı xalçalı Kreml dəhlizlərinə.

Həmin günlərdə Putin, ABŞ Milli Demokratiya İnstitutunun ("National Democratic Institute for International Affairs"-in, qısaca desək NDI) treninqlərinə cəlb edilərək Amerika tərəfindən nəzarətə götürülür. Barəsində xüsusi dosye yaradılır. Amerikalılarda adət var - solaxayları qəti sevməzlər. Putinin bu və digər cəhətləri Maykl Makfolda, ABŞ-ın Rusiyadakı növbəti səfirində Putinə qarşı mənfi rəy formalaşdırır. Balıqçı balıqçını, agent agenti, "mole" özü kimisini çox uzaqdan gördüyü kimi, Makfol da bu kadrda məhz özünü görüb bərk diksinir. Ağ Evə yazdığı raportda Putin barəsindəki öz şəkk-şübhəsini yuxarılara çatdırır.

***

Boz "Mole", növbəti dəfə Qərb xüsusi xidmət qurumlarını aldadır. Kreml şkaflarına, kabinetlərinə girib onları içəridən didməyə başlayır. Çeçen müharibəsini udub, Şimali Qafqazda əmin-amanlığı bərpa edir. Qiymətli daş, qızıl ehtiyatlarını birə on dəfə artıraraq Çindən, Yaponiyadan sonra bu siyahıda üçüncü yer qazandırır Rusiyaya. Neft-qaz şirkətlərinin kontrol paketini yenidən dövlətə qaytaran, bu sahədəki vergi gəlirlərini 250 faiz artıran Putin tezliklə yerli oliqarxlar, bankirlərlə toqquşur. "Məxfi porsuq", burda da öz rəqiblərini - ilk növbədə Xodarkovskini tora salaraq qazamata göndərir.







Xodorkovski isə pərdənin sadəcə önüdür. Pərdənin arxasında isə dünyapərdəarxası, gizli, məxfi qurumlardı. Xodorkovski kimilərin əli ilə Rusiyanın təbii ehtiyatlarını ələ keçirmək istəyən bu qüvvələr də Putinə tablamayıb səhnəni tərk etməyə məcbur qalırlar.

***

Brejnevdən sonrakı Kreml sahibləri - Qorbaçov, Yeltsin, razılaşaq, Azərbaycanı qətiyyən sevməyiblər. Putindən sonra isə Kremdə ölkəmizlə bağlı vəziyyət sabitləşdi. Sonralar Putin bu xətlə bir addım da irəliləyib Türkiyə ilə dostlaşdı. Bütün bunlar bizim çox ciddi qazanclarımızdı.

Sovet KQB-si nə qədər güclü olsa da, heç vaxt Vaşinqtondakı seçki göstəricilərini öz xeyrinə dəyişməyib. Heç vaxt KQB, Türkiyədəki Amerika casus şəbəkələrini *(Gülən camaatı və s.)* bircə gülləylə qətlə yetirib, ölkə prezidentini - Ərdoğanı labüd ölümdən xilas edərək tam təhlükəsiz bir yerə köçürməyi bacarmazdı. Putin bunları bacardı. Vladimir kəlməsini bir başqa cür tələffüz etdirdi bütün dünyaya. Sonra qulaqlarımıza pıçıldadı ki, bəs bu rus dilində "cahangir" mənasını verir, biləsiz.

**Rus "motroşka"sı qəliz oyuncaqdı. Yazıçıların axtardığı, qələmə aldığı "rus ruhu", məncə, elə bu oyuncaqların dərinliyində gizlənir. Yeltsinin motroşkasını alacaqsan, içindən Putin çıxacaq.**

**Qalibləri müzakirə etmirlər.**

**Putin qalibdi. İndi bunu bütün dünya yana-yana etiraf edir.**

❑ **Həmid HERSÇİ**

YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016

## Siyasətdən zərərli çıxan sabiq məmur biznesdə qazanmaq istəyir

**Rusiyanın Xəzərdəki əsas ticarət limanı olan Mahaçqala limanının səhmlərini almağa İran əsas namizəddir. Virtualaz.org xəbər verir ki, bu barədə Dağıstan rəhbəri Ramazan Abdulatipov bildirib. Bununla Dağıstan rəhbəri bildirir ki, limanın səhmlərini almaq uğrunda Çin, Türkiyə, Azərbaycan və Vyetnamdan olan investorlar da mübarizə aparır.**



# Abbas Abbasov Xəzərin o biri tərəfinə köç edir

## Sabiq vitse-primyer Mahaçqala limanının alınması ilə bağlı danışıqlarda əsas fiqurlardan biri kimi iştirak edir; əsasən Türkiyədə yaşayan A.Abbasovu Dağıstana aparan səbəblər...



Dağıstan rəhbəri Ramazan Abdulatipov bildirib ki, danışıqlar bütün potensial investorlarla aparılır, ancaq iranlılar əsas müştəridir. “İranlılar limanın səhmlərini almağa hazır olduqlarını elan ediblər, ancaq biz Vyetnam, Türkiyə, Çin və Azərbaycandan olan investorlarla da danışıqlar aparırıq”-Ramazan Abdulatipov “Sputnik”ə bildirib.

Mahaçqala limanı sistemli şəkildə neft oğurluğuna görə tanınır. Liman formal olaraq dövlət mülkiyyətində olsa da Dağıstandakı nüfuzlu kriminal klanların nəzarətindədir və oradan oğurluq neft kustar neftayırma zavodlarına ötürülür. Limanın bu ilin sonuna qədər özəlləşdirməyə çıxarılacağı gözlənilirdi. Limanın özəlləşdirməyə çıxarılacağı açıqlanan kimi onu almağa əsas iddiaçının Rusiya Federasiya Şurasının Dağıstandan olan üzvü, milyarder Süleyman Kərimov olduğu açıqlanıb.

Məsələ burasındadır ki, Süleyman Kərimovun Kiprdə qeydiyyatdan keçmiş “Arolia” offşor şirkəti limanın “Sberbank”a olan kredit borcunu alıb. Söhbət təxminən yarım milyard rublluq borcdan gedir. Limanın özəlləşdirməyə çıxarılacağı məlum olan kimi “Arolia Holding” Dağıstanın Arbitraj Məhkəməsində “Mahaçqala dəniz təcarət limanı” dövlət idarəsinə qarşı 678 milyon rubl məbləğində iddia qaldırıb. Şirkət ya borcun faizləri ilə birlikdə ödənilməsini, ya limanın müflis elan edilməsini istəyir. Əgər iddia təmin olunsa Mahaçqala limanı müflis olacaq. Kərimov isə müflis olmuş limanı qəpik-quruşa ələ keçirəcək.

Habelə məlum olub ki, Mahaçqala limanını almağa Türkiyənin liman operatoru “Yılport Holding” maraq göstərir. Holdinqin adından Dağıstan rəhbərliyi ilə danışıqları aparan isə Telman İsmayılovdur. Bildirilirdi ki, Türkiyədə yaşayan T.İsmaylovun bu holdinqlə bağlılığı var və o, Dağıstan rəhbəri Ramazan Abdulatipovla yaxın münasibətlərindən istifadə edərək bu gəlirli obyekti ələ almağa çalışır. Çox güman ki, Ramazan Abdulatipov limanın səhmlərini almağa maraq göstərən Türkiyə investorları barədə danışarkən “Yılport Holding”i nəzərdə tutub.

“Yeni Müsavat”ın məlumatına görə, Mahaçqala limanının alınması ilə bağlı danışıqlarda əsas fiqurlardan biri də Azərbaycan baş nazirinin sabiq birinci müavini olmuş Abbas Abbasovdur, o da bu prosesdə fəal iştirak edir.

Mənbə deyib ki, siyasətdən getdiyini bəyan edən A.Abbasov son aylar əsasən Türkiyədə-övladlarının yanında yaşayır. Amma biznesmen kimi fəaliyyətini daha da genişləndirməyi düşünən sabiq vitse-primyer tez-tez Dağıstan prezidentinin qonağı da olur. R.Abdulatipovun bir neçə ay əvvəl Abbas Abbasovun qardaşı, Beynəlxalq Bank işinə görə həbs edilən Nadir Abbasovun azadlığa buraxılmasında da rolu olduğu deyilir. A.Abbasovun Dağıstana Türkiyə investisiyasının yatırılması prosesinə hələ bir neçə il əvvəldən maraq göstərdiyi məlumdur. Hələ bir neçə il əvvəl də İstanbulda, daha sonra isə Mahaçqalada iri türk şirkətləri ilə aparılan danışıqlarda A.Abbasovun Dağıstan prezidentinin yanında yer alması həm Rusiya, həm Azərbaycan mediasının diqqətini çəkmişdi. Bildirilirdi ki, A.Abbasov danışıqlarda Türkiyə investorlarını Dağıstana tikinti, trikotaj sənayesi və qismən də olsa turizm sektoruna sərmayə yatırmağı planlaşdıran Türkiyə şirkətlərini razı salmağa çalışırmış.

“AST” Şirkətlər Qrupunda vitse-prezident olan Abbas Abbasovun *(onun hələ də bu vəzifədə işlədiyi deyilir)* Telman İsmayılovla birgə Mahaçqala limanının bir hissəsini almaları barədə məlumatlar hələ bir neçə il əvvəldən də var idi. Amma o vaxt başı yaratdığı “Milyarderlər İttifaqı” adlı qurumda fəaliyyətə qarışmış A.Abbasov bu planları gerçəkləşdirə bilmədi. Abdulatipovla yaxın dostluğu ( o da qurumda təmsil olunurdu) heç kimə sirr olmasa da, onun yaratdığı qurumun fəaliyyətinin Azərbaycan hakimiyyətinə qarşı yönəlməsi biznes planlarına ciddi zərbə oldu. A.Abbasovun Azərbaycana yolu birdəfəlik bağlandı, biznesi çökdürüldü, Gəncədən deputat olan oğlunun isə son parlament seçkilərində iştirakına imkan verilmədi.

A.Abbasovun Dağıstanda tikinti, restoran və neft daşımaçılığı biznesi olması dəqiq məlumdur. Belə görünür ki, Bakıya gəlmək qadağası olan sabiq vitse-primyer Xəzərin o tərəfində biznesini genişləndirməklə vətən həsrətinin acısını çıxarmaq istəyir...

❑ **“YM”**

# Sonuncu klassik imperiyanın çabaları...



**Hüseynbala SƏLİMOV**

**Rusiyanın Suriyaya uçan təyyarəsinin Qara dəniz üzərində qəzaya uğramasının səbəbləri hələ araşdırılmalıdır. “Konspiroloji nəzəriyyələr”i sevmədiyimizdən hər hansı mülahizə səsləndirmək və ən əsası da həmin mülahizələrimizi oxuculara zorən sırımaq istəmirik...**

Sözsüz ki, səfir A.Karlovun ölümündən, eləcə də Suriya məsələsində İranın, Rusiyanın və Türkiyənin bir araya gəlməyə cəhd etməsindən dərhal sonra belə hadisənin də baş verməsi müəyyən “qənaətlər”ə yol açır.

Ən azı A.Karlovun öldürülməsini “Hələbə görə qisas” adlandıran Rusiya mediasının ardınca elə təyyarə qəzasına da bunun səbəb olduğunu iddia etmək olardı...

Di gəl, bir azacıq təəccüblü olsa da, nədənsə Şimal qonşumuzun mediasında belə fikirlərlə rastlaşmadıq, üstəlik, indiyə qədər alışdığımız isterikanı da görmədik, sanki Rusiyanın media əhli daha təmkinli və sakit olubdur.

Düzdür, həlak olanlarla vida mərasimlərindən reportajlar mütəmadi olaraq verilirdi, amma diqqət çəkən bu idi ki, öz “isterik tutma”ları ilə həmişə seçilən Rusiyanın media əhli öz fantaziyalarına meydan verməyə tələsmədi...

Doğrusu, mən bunun səbəblərini bir qədər başqa cür izah edirəm: düşünürəm ki, sadəcə, hökumətdən belə sifariş daxil olmamışdı. Məsələ bundadır ki, Rusiyada da azad media yoxdur. Jurnalistlər də o vaxt hay-küy salmağa və yaxalarını cırmağa başlayırlar ki, dövlətdən bunu təqdir edən sifarişlər daxil olsun...

Bir daha deyirəm ki, görünür, bu cür sifarişlər daxil olmadı. Hökumət bəlkə özü də mövzunu böyütmək istəmir, çünki kimlərinsə ağlına “Bizim Suriyada nə işimiz var ki?..” sualı da gələ bilərdi..

Rusiya və xüsusən də onun Yaxın Şərqdəki “missiya”sı haqda vaxtaşırı yazırıq. Əvvəllər də qeyd etmişdik ki, Suriyanın timsalında Rusiya Yaxın Şərqdə hansı “oyun”a girdiyinin fərqində olmalıdır.

Düzdür, onun hərb maşını müdaxilə edənə qədər də Suriya hərbi-siyasi cəngəlliyi xatırladırdı, amma Rusiya vəziyyəti bir azacıq da qəlizləşdirdi...

Hamı Suriyada baş verənləri Qərbin müdaxiləsi ilə izah edir. Söz yox ki, müəyyən qədər həqiqət var burada. Sanki bir dirijorun işarəsi ilə bir neçə ərəb ölkəsində təxminən eyni vaxtda aləm qarışdı...

Qərb dairələri prinsipcə, bunu inkar etmirlər. Avropalılar sussalar da, ABŞ liderləri - özü də prezident və dövlət katibi səviyyəsində istər Suriya, istərsə də digər ərəb ölkələrindəki vəziyyətə görə məsuliyyət daşıdıqlarını deyiblər. Təbii ki, belə etiraflar heç də təskinlik vermir. Ona görə ki, çox böyük sosial - siyasi kataklizmlər yaşandı...

Amma bir nüans da var. Avtoritar ərəb ölkələrində nə vaxtsa sosial-siyasi “mina”lar partlamalı idi. Ərəb ölkələrindəki, xüsusən də Suriyada baş verənləri yalnız və yalnız Qərbin müdaxiləsi ilə izah edəndə əslində özümüz də qeyri - ixtiyari olaraq etiraf etmiş oluruq ki, ərəbləri, eləcə də cəmi müsəlmanları lap əbədiyyətə qədər diktatura ilə idarə etmək olar! Gəl, belədirmi? Əsla belə düşünmürük...

Düzdür, müsəlmanlar, xüsusən də ərəblər hələ ki ölkələrindəki avtoritar rejimlərə qarşı mütərəqqi, 21 - ci əsrə layiq siyasi-iqtisadi alternativlər qoya bilmirlər ortaya. Hətta kənar müşahidəçi kimi mən özüm də hesab edirəm ki, İŞİD-dənsə Əsəd diktaturası daha məqbuldur!..

Gəl, bunların günahı kimin adına yazılmalıdır? Bu insanlar on illərlə cəhalət və diktatura şəraitində yaşayıb, onlara heç bir demokratik vərdiş aşılanmayıb, onların seçmək və yaxud da seçilmək imkanları olmayıb...

Bu səbəbdən də müsəlman dünyasında demokratik, dünyəvi siyasi partiyaların əvəzinə İŞİD-lərin və ya digər belə qruplaşmaların meydana çıxması təəccüb doğurmamalıdır.

Hər hansı hakimiyyət dinc və ya dünyəvi müxalifətə meydan vermirsə, çox tez zamanda və yaxud da nə vaxtsa, mütləq hərbi - dini müxalifətlə üzləşəcək...

O ki qaldı Rusiyaya, onun da çabalarının özəl səbəbləri vardır. O gün baxıram, rusiyalı politoloq deyir ki, dünyadakı münaqişələrə qarışmasaq və diqqəti özümüzdən yayındırmasaq, bir gün görəcəyik ki, Rusiya özü parçalanmağa başlayıb...

Demirik ki, imperializm tək Rusiya ilə məhdudlaşır. Amma Rusiya sonuncu klassik imperiyadır. Elə o üzdən də daim narahatıq və səksəkə içindədir.

Üstəlik, real iqtisadi resursları da böyük deyildir. B.Obama “Neft və qazdan, bir də silahdan savayı heç nələri yoxdur!” deyəndə haqlıdır. Ruslar özləri də bunu dərk edir, ona görə də yeganə üstünlüklərindən - hərbi gücdən maksimum yararlanmağa çalışırlar...

YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016

**İsrailin baş naziri Benyamin Netanyahunun Bakıya səfərindən sonra qonşu İran dövləti hələ də təhdid xarakterli mövqeyinə son qoymur. Hansı ki, Netanyahunun səfərinin ardınca İran prezidenti Həsən Ruhani Ermənistana elə Bakıya cavab xarakterli səfər etdi, işğalçı ölkəni dirçəltməyə yönəlik bir sıra sazişlər imzalandı.**

# Azərbaycan məsələsi İran hakimiyyətini parçalayıb

## İranın rabitə və informasiya texnologiyaları naziri Bakıda geniş əməkdaşlıq müzakirələri apardığı vaxtda, bu ölkənin müdafiə naziri hədə bəyanatı verdi


Hüseyn Dehqan

Azərbaycan İran prezidentinin bu səfərinə dözümlü münasibət sərgilədiyi halda, Tehran rəsmiləri Azərbaycanın daxili işlərinə müdaxiləyə son qoymurlar. Belə ki, İranın müdafiə naziri, general Hüseyn Dehqan Rusiyanın əsas təbliğat maşını olan “Rossia Today” telekanalına müsahibədə İsraillə Azərbaycan arasındakı əməkdaşlıq haqqında danışarkən növbəti dəfə ölkəmizin daxili işlərinə qarışıb. Özü də nazirin fikirlərində açıq şəkildə təhdidlər var. **Sitat:** “Biz Azərbaycandakı dostlarımızın diqqətinə çatdırmışıq ki, İsrailə bu regiona çıxış imkanı vermək onların xeyrinə olmayacaq. İran buna dözməyəcək”. Dehqanın “onların xeyrinə olmayacaq”, “İran buna dözməyəcək” deməklə nələri nəzərdə tutduğunu demək çətindir. Amma müstəqil bir ölkənin daxili işlərinə qarışmaq üçün bu, kifayət qədər kəskin ifadə, açıq təhdiddir. Düzdür, ardınca o əlavə edib ki, “bu, onların qərarıdır, onların məqsədlərinə çatması və maraqlarının təmin olunması naminə qəbul olunub. Və biz buna qarşı çıxa bilmərik”, ancaq fikirlərinin əvvəli ilə davamı arasında kəskin fərq var. Odur ki, İranın bu kimi davranışlarına son qoyulması zəruri sayılır.

Qeyd edək ki, bundan əvvəl də tehranlı professor Bəhram Əmirəhmədian Ermənistan mətbuatına verdiyi açıqlamasında “İran Azərbaycanın şiə əhalisini bu ölkənin hökumətinə qarşı istifadə edə bilsə də, heç vaxt o potensialdan istifadə etməyib”-deyə, hədələmişdi.

**Politoloq Şahin Cəfərli “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, İran müdafiə nazirinin sözləri diplomatik etiket çərçivəsindən kənara çıxır:** “Bu, iki ölkə arasındakı dostluğa və əməkdaşlığa qətiyyən uyğun gəlməyən, təhdid xarakterli bəyanatdır. Daha əvvəl İranda din adamları, parlament üzvləri bu tip bəyanatlar səsləndiriblər. Lakin müdafiə naziri rəsmi şəxsdir və dövləti təmsil edir”. **Ekspertin fikrincə, Azərbaycan mütləq bu məsələyə münasibət bildirməlidir:** “Ən azı, İranın Azərbaycandakı səfiri XİN-ə çağırılaraq ondan izahat tələb olunmalı, etiraz notası təqdim edilməlidir”.

**Ş.Cəfərli nazirin dediklərindəki bir sıra məqamlara diqqət çəkdi:** “Bu açıqlamanı üstü örtülən bəzi gerçəklərin ortaya çıxması baxımından əhəmiyyətli sayıram. Əvvəla, biz bir daha görürük ki, İran müstəqil Azərbaycan dövlətinin varlığı və onun müstəqil xarici siyasət yeritməsi faktını həzm etməkdə çətinlik çəkir. İran onunla məzhəb eyniliyinə malik həmsərhəd bir ölkənin tamam fərqli, bir çox halda İrandakı rejimin maraqlarına zidd siyasət yeritməsi ilə barışa bilmir. İran Azərbaycanın ondan müəyyən mənada asılı olmasında maraqlıdır, istəyir ki, Bakı öz xarici siyasətini Tehranla koordinasiya etsin. Bu, əlbəttə ki, qəbuledilməz mövqedir. İkincisi, Dehqanın sözləri Azərbaycanın təhdidlərlə, risklərlə dolu mürəkkəb bir coğrafiyada yerləşdiyini bir daha bizə xatırlatdı”.


Mahmud Vaezin

**Politoloqun sözlərinə görə, çox təəssüf ki, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə hər hansı real təminatlar yoxdur:** “Ermənistan Rusiyaya sığınaraq öz təhlükəsizliyini bu ölkəyə həvalə edib. Gürcüstan NATO-ya inteqrasiya kursu seçib və 2017-ci ildə bu istiqamətdə ciddi addımların şahidi olacağıq. Azərbaycan isə Qoşulmayanlar Hərəkatına qoşularaq neytral ölkə olmağa üstünlük verib. Bu hərəkatın siyasi səviyyədə və təhlükəsizlik baxımından bizə hər hansı üstünlük qazandırdığına inanmıram. Bu, Azərbaycana hər hansı təhlükəsizlik qarantiyası vermir, potensial düşmənlər üçün çəkindirici təsiri yoxdur. Azərbaycan ya ikitərəfli, ya da çoxtərəfli əsasda təhlükəsizlik qarantiyası almaq məsələsi üzərində çox ciddi şəkildə düşünməlidir. Bunun həyati əhəmiyyətli və ümummilli xarakterli məsələ olduğu ortadadır və bu mövzuda bütün cəmiyyətin iştirakı ilə müzakirələr aparılıb, qərar verilməlidir. Təbii ki, İrandan səslənən hədələr Azərbaycanı öz siyasətini dəyişməyə vadar etməməlidir. Çünki geri addım atmaq o deməkdir ki, qarşı tərəf bundan sonra da bənzər tələblər irəli sürə bilər, bu isə artıq müstəqilliyin məhdudlaşması mənasına gəlir. Əlbəttə, İran və Rusiya kimi aqressiv dövlətləri qıcıqlandıracaq və özündən çıxaracaq addımlar atmaq risklidir, bu məsələdə çox ehtiyatlı olmaq lazımdır. Hesab edirəm ki, Azərbaycan ehtiyatlı və tədrici avroatlantik siyasətə üstünlük verməlidir və ölkənin milli təhlükəsizlik probleminin həlli xarici siyasətin 1 saylı prioritetinə çevrilməlidir”.

Elə iki gün qabaq İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıya səfər etdi və Bakıda Azərbaycan-İran biznes forumu keçirildi, dostluq mesajları verildi. Üstəlik, elə bu arada “Azərbaycan və İran arasında imzalanmış ”Xudafərin" və “Qız Qalası” sazişi İran parlamenti tərəfindən ratifikasiya edildi.

**“Atlas” Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da hesab edir ki, nazirin açıqlaması növbəti dəfə İran rəsmisinin Azərbaycanın daxili işlərinə qarışmasıdır:** “Bu cür açıqlamalar Mahmud Vaezinin fəaliyyətini də çətinləşdirir. Çünki Vaezi bir tərəfdən Azərbaycanla əlaqələrin inkişafına, ortaq layihələrin reallaşmasına çalışarkən, iranlı bir başqa məmur bu əməkdaşlığa kölgə salan açıqlama verir ki, nəticədə rəsmi Bakı qonşu dövlətlə münasibətlərdə ehtiyatlı mövqeyinə qayıdır”.

Ümumiləşdirsək, İranın müdafiə naziri təkcə Bakını təhdid etməyib, həm də Azərbaycan paytaxtında qonaq olan həmkarının dostluq və qonşuluqla bağlı mesajlarının səmimiliyinə şübhələr yaradıb. Hər halda, Azərbaycan məsələsi İran hakimiyyətində parçalanma yaradıb. Ermənistanla dostluğu və qardaşlığı seçənlər Bakı ilə hədə dilində danışırlar...

❑ **Elşad PAŞASOY**

# Vitse-prezidentlərin təyinatı apreldə ola bilər

## Həlli gələn ilə qalan və ölkədə çox şeylərə təsir edəcək məsələ...

**Ölkə üçün mühüm, lakin həlli gələn ilə qalan məsələlərdən biri də birinci vitse-prezident və vitse-prezidentlərin təyinatıdır. Vitse-prezidentlərin təyinatının isə artıq gələn ilə qaldığını əminliklə söyləmək mümkündür.**



Sentyabrın 26-da keçirilmiş referendumda konstitusiyaya dəyişikliklər edildikdən sonra konstitusiyanın yeni tələbinə uyğun olaraq vitse-prezidentlərin təyin ediləcəyi barədə gözləntilər doğrulmadı. Oktyabrın 12-də qüvvəyə minmiş Referendum Aktına əsasən, ana qanunda prezident seçilmək, baş nazir təyin edilmək, hakim olmaq, deputat mandatı almaq, nazir postu tutmaq üçün yaş senzi aradan qaldırılıb, prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilə artıb, dövlət başçısına növbədənkənar prezident seçkisi elan etmək, parlamenti buraxmaq hüququ verilib.

Konstitusiyada daha bir əsas yenilik isə vitse-prezident postlarının təsisidir. Birinci vitse-prezident və vitse-prezidentləri Azərbaycan prezidenti vəzifəyə təyin və vəzifədən azad edir, növbədənkənar prezident seçkisi zamanı dövlət başçısının səlahiyyətləri birinci vitse-prezidentə keçir.

Ölkə başçısı hələ ki vitse-prezidentləri təyin etməyib. Araşdırmalarımız zamanı öyrəndik ki, hələ sözügedən təyinatların olmamasının obyektiv, hüquqi əsasları var. Vitse-prezidentlik təsisatı ən uzağı 2017-ci il aprelin 12-nə qədər yaradılacaq və uyğun təyinatlar olacaq. Belə ki, prezident İlham Əliyevin “2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş ”Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə" sərəncamı tam icra edildikdən sonra bu təsisat yaradılacaq və vitse-prezidentlər təyin ediləcək. Sərəncam 12 oktyabr 2016-cı ildə verilib və icra müddəti 6 aydır. Sərəncamda Nazirlər Kabinetinə altı ay vaxt verilir ki, hüquqi-aktların konstitusiya dəyişikliyinə uyğunlaşdırılmasını təmin etsin və dəyişikliklərdən irəli gələn müvafiq hüquqi aktların layihələrini hazırlayıb prezidentə təqdim etsin. Bu müddətin bitməsi üçün 2017-ci il 12 aprel son tarixdir. Aprelin 12-sinə qədər o deməkdir ki, təyinatlar hər an ola bilər.

Müəyyən əsasnamələrin hazırlanması, vitse-prezident vəzifələrində olan şəxslərin müəyyən statuslarının dəqiqləşdirilməsi, sənədləşdirilməsi vaxt aparan işlərdir. Çox güman ki, bu məsələlərin həllindən sonra vitse-prezidentlərin təyinatı gerçəkləşəcək. Çünki dəqiq səlahiyyətlər bölgüsü aparılmalıdır ki, məsələn, bilinsin ki, baş nazirin səlahiyyətləri nədir, vitse-prezidentlərin səlahiyyətləri nədir. Səlahiyyət bölgüsü aparılmasa, müəyyən prosedur və idarəetmə problemləri yarada bilər. Bu məsələlər həllini tapandan sonra prezident istənilən vaxt birinci vitse-prezident və vitse-prezidentlər təyin eləyə bilər. Qanunda konkret tələb qoyulmayıb ki, dəqiq filan vaxtda və ya filan vaxta qədər bu təyinatlar həyata keçirilməlidir. Prezidentin səlahiyyətindədir ki, istədiyi vaxt təyinat həyata keçirsin.

Vitse-prezident təyinatlarından sonra isə Nazirlər Kabinetinin yenidən təşkil ediləcəyi bildirilir. Baş nazirin müavini postlarının ləğv ediləcəyi, onların funksiyalarının vitse-prezidentlərə ötürüləcəyi yayılan xəbərlər sırasındadır. Yalnız baş nazir və onun köməkçiləri ştatlarının saxlanılacağı, Nazirlər Kabinetindən fərqli olaraq vitse-prezidentlik təsisatının işlək institut olacağı və cari idarəetmə ilə məşğul olacağı da bildilir. Bundan başqa, bir neçə nazirlik və dövlət komitəsinin yenidən təşkili və birləşdirilməsi nəzərdə tutulur ki, bu məsələlər iqtisadi islahatların davam olaraq həyata keçiriləcək.

Onu da bildirək ki, konstitusiyaya görə artıq ölkədə hakimiyyət iyerarxiyasında ikinci rəsmi şəxs baş nazir yox, birinci vitse-prezidentdir. Bu baxımdan, birinci vitse-prezident postuna kimin təyin ediləcəyi hər kəsin diqqət mərkəzindədir. Vitse-prezidentlərin isə sayının iki olacağı deyilir.

Referendum təyin ediləndən sonra vitse-prezident vəzifələrinə, əsasən də birinci vitse-prezident postuna kimin təyin ediləcəyi barədə mediada müxtəlif informasiyalar, versiya və ehtimallar irəli sürülüb. YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov da bildirib ki, vitse-prezidentlərin təyinatı məsələsi prezidentin səlahiyyətində olan məsələdir. Prezident istədiyi zaman bu təyinatları həyata keçirmək səlahiyyətinə malikdir.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016

# MTN-in "qara qutusu" general Teymur Quliyev danışdı

## "Tağı Əhmədovun telefonu nazirin tələbnaməsi əsasında dinlənilib"

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən proses jurnalistlərin iştirakı olmadan davam etdirilib. Məhkəmə prosesində hazırda həbsdə olan MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev ifadə verib.

Musavat.com-a açıqlama verən A.Çovdarovun **vəkili Sadiq Rəsulov** bildirib ki, T.Quliyev məhkəmədə heç bir qanun pozuntusuna yol vermədiyini və təlimata əsasən fəaliyyət göstərdiyini söyləyib: "Teymur Quliyev dedi ki, nazir Eldar Mahmudovun imzaladığı tələbnamə əsasında siyahıda olan nömrələri dinləyiblər. Kimlərinsə nömrəsini dinləmək üçün məhkəmə qərarı tələb olunmayıb. Teymur Quliyev dedi ki, onların idarəsi köməkçi idarə olub və hər zaman da belə fəaliyyət göstəriblər. O bildirdi ki, DİN, Baş Prokurorluq, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi də onlara müraciət edib və həmin zaman da telefonlar eyni qaydada dinlənilib. General söylədi ki, Tağı Əhmədovun da telefonu nazirin tələbnaməsi əsasında dinlənilib".

**Vəkil bildirib ki, general Akif Çovdarov da bu məsələ ilə bağlı arayış verib:** "Bəzi dövlət qurumlarının, hətta Rüstəm Usubovun müraciəti ilə açılmayan cinayət işlərinin araşdırılması üçün birgə fəaliyyət göstərilərkən telefon danışıqları dinlənilib. Bu zaman da nazirin tələbnaməsi ilə MTN-in Monitorinq İdarəsi dinləmələr aparırdı".

Qeyd edək ki, T.Quliyev "MTN işi"ndə ən mübhəm fiqurlardan biridir. MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsində çalışmış Teymur Quliyev Eldar Mahmudovun "qara qutusu" hesab olunur. Məhz onun rəhbərlik etdiyi Monitorinq Mərkəzi bütün qanunsuz dinləmələri həyata keçirib. Bu dinləmələr isə təkcə hədəfdə olan sahibkarları əhatə etmir. Məlumata görə, hakimiyyət təmsilçiləri də Teymur Quliyevin rəhbərlik etdiyi otaqdan dinlənilib, mümkündür ki, səs yazıları kimi qeydə də alınıb. Generalın məhkəmədə verdiyi ifadə bu iddiaları təsdiqləmiş oldu.




T.Quliyevi ötən il oktyabr ayının 18-də Teymur Əliyev küçəsində yerləşən 4 mərtəbəli villasında həbs ediblər.

1970-ci ildə Bakıda anadan olan Teymur Quliyev o vaxt Xalq Təsərrüfatı İnstitutu adlanan ali məktəbi bitirib. Teymur Quliyevin atası da polis sistemində işləyib, bir sıra rayonların rəisi olub. Əmisi isə sovetlər vaxtı daxil işlər nazirinin müavini vəzifəsində çalışıb.

T.Quliyev DİN-in İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə idarəsində Eldar Mahmudovun bilavasitə rəhbərliyi altında işləyib və burada onların "iş birliyinin" əsası qoyulub.

Eldar Mahmudov milli təhlükəsizlik naziri təyin olunandan sonra T.Quliyevi də MTN-ə gətirib. Əvvəl MTN-də təchizat şöbəsinin rəisi postunda işləyən T.Quliyev hələ də bilinməyən "xidmətlərinə görə" tezliklə daha yüksək posta - MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsinə təyinat alıb. 2012-ci ilin mart ayında ölkə başçısının sərəncamı ilə general-mayor rütbəsi alan T.Quliyev hüquq-mühafizə sistemində ən gənc generallardan biridir.

***

Məhkəmədə şahid qismində Akif Çovdarovun sürücüsü Nurxan Atakişiyev də ifadə verib. Nurxan Atakişiyev ötən proseslərdə də ifadə vermişdi.

Vəkil deyib ki, N.Atakişiyev sonuncu ifadəsindən sonra işdən çıxarılıb: "Nurxan DTX-da sürücü işləyirdi. O, sonuncu ifadəsindən sonra işdən çıxarıldığını dedi. Məhkəmədə bildirdi ki, ötən prosesdə ifadə verərkən işindən ehtiyat edib. Amma indi işsiz olduğu üçün rahat danışa bilir. O, ifadəsində A.Çovdarovin əleyhinə danışmadı".

**Məhkəmədə A.Çovdarovun sürücüsü Tağı Əhmədovun epizodu üzrə ifadə verib. Sadiq Rəsulovun sözlərinə görə, N.Atakişiyev ifadəsində deyib ki, Tağı Əhmədovun özü, oğlu və qardaşı oğlu yalan ifadələr veriblər:** "İttihama görə, Tağı Əhmədovun oğlu Ruslan Əhmədov və qardaşı oğlu Əli Əhmədov Akif Çovdarova pul verərkən Nurxan da orada olub. Nurxan ifadəsində dedi ki, bu yazılanlar yalandır. Hətta istintaq zamanı Nurxanla üzləşdirilərkən Əli Əhmədov onu tanımayıb. Nurxan dedi ki, istintaqda müstəntiq Əli Əhmədova onun Nurxan olduğunu, A.Çovdarovun sürücüsü olduğunu söyləyib. Bundan sonra Əli onu tanıdığını deyib. Həmçinin Nurxan dedi ki, Əli və Ruslan maşının nömrəsini də ifadələrində səhv göstəriblər. Nurxan onu da qeyd elədi ki, yay aylarında "Nissan" markalı maşını idarə edib, yalnız qış aylarında "Land Rover" sürüb. Buna səbəb kimi isə A.Çovdarovun səhhətini göstərib. Nurxan dedi ki, "Land Rover" hündür olduğundan A.Çovdarov minib-düşəndə çətinlik çəkirmiş. Ona görə də "Nissan"dan istifadə edilirmiş. Ancaq Əli və Ruslan pulu "Land Rover"də verdiyini deyir. Həmin zaman da yay idi. Həmçinin Nurxan söylədi ki, Tağı Əhmədov və oğlunun dediyi pul vermək məsələsi yalandır".

İttihama görə, Tağı Əhmədov Akif Çovdarova 3 milyon manata qədər pul verdiyini iddia edib. A.Çovdarov tərəfindən təhdid edildiyini, oğlu və qohumları ilə şantaj edildiyini deyən T.Əhmədov buna görə generalın tələbini yerinə yetirdiyini deyib.

Bildirək ki, A.Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

❑ İlkin MURADOV

# Vitse-spiker Eldar Mahmudovun həbsini anons etdi

## Ziyafət Əsgərov: "Təqsiri olan hər bir şəxs sözsüz ki, məsuliyyətə cəlb olunacaq"

**Milli Məclis sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun məsuliyyət məsələsindən danışıb.**



Vitse-spiker son bir neçə ildə Azərbaycanda korrupsiya faktları ilə bağlı təhlükəsizlik strukturları da daxil olmaqla, yüksək rütbəli məmurların həbsi, qurumlarda islahat xarakterli addımların davam etdiriləcəyi ilə bağlı fikirlərini açıqlayıb.

"Ümumiyyətlə, bizim qəbul etdiyimiz hər bir sənəd özlüyündə islahatları ehtiva edir. Cənab prezidentin bu istiqamətdə də islahatlar aparılması ilə bağlı xeyli fərmanları, sərəncamları var. Əlbəttə, qəbul etdiyimiz qanun layihələri də bu islahatların ruhuna uyğun olmalıdır. Məsələn, bu yaxınlarda "Hərbi vəziyyət haqqında" qanun layihəsini yenidən hazırlayıb qəbul etdik. Bu qanunu ilk dəfə 1994-cü ildə qəbul etmişdik. Dövrünə görə də, indi də o qanun işləyir və gözəl qanundur. Amma artıq 1994-cü ildə bu qanunu qəbul etdikdən sonra biz 1995-ci ildə yeni Konstitusiyanı, Hərbi Doktrinanı, Təhlükəsizlik Konsepsiyasını qəbul etdik və sair. Ona görə də bu sənədi yenidən hazırlayıb, qəbul etdik. Ordumuz güclənirsə, onun normativ hüquqi bazası da güclənməlidir. Bu yöndə işlərimiz davam edir. O ki qaldı həbs olunanlara, hələ istintaq getdiyi üçün gəlin, məhkəmənin qərarını gözləyək"- deyə Z.Əsgərov bildirib.

**APA müxbirinin "sizcə, MTN-ə vaxtilə rəhbərlik edən nazir məsuliyyət daşıyırmı" sualına vitse-spikerin cavabı belə olub:** "Əlbəttə daşıyır. Təqsiri olan hər bir şəxs sözsüz ki, məsuliyyətə cəlb olunacaq. Bundan sonra hansı cəza tədbirləri görüləcək, bu, məhkəmənin qərarından asılı olacaq".

Qeyd edək ki, 2015-ci il oktyabrın 17-də Eldar Mahmudov vəzifəsindən çıxarılandan və rəhbərlik etdiyi qurumda həbslər gerçəkləşəndən sonra belə fikir formalaşmışdı ki, onu da həbs edəcəklər. Bu gün isə ictimai şüurda Eldar Mahmudovun həbs edilməyəcəyi, istintaqdan kənar qalacağı fikri bərqərar olub. Bunun bir sıra səbəbləri var. Məsələn, bugünlərdə aydın oldu ki, Eldar Mahmudovun bibisi qızının yoldaşı, hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində "Rabitə işi" üzrə həbs edilən Beytulla Hüseynovu da həbsdən azad etmək üçün hazırlıqlar görülür. B.Hüseynovun həbsindən sonra 50-yə yaxın əmlakının üzərinə qoyulmuş həbs götürülüb. Onun məhkəmənin sonunda şərti cəza ilə azad ediləcəyi haqda da xəbərlər var. Halbuki bu gün üzə çıxan istintaq materiallarına görə Beytulla Hüseynov Eldar Mahmudovun təkidi ilə Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin baş direktoru vəzifəsinə təyin edilib.

Beytulla Hüseynovun xidməti otağında 34 ədəd telefon yuvası olub. Bu yuvalar ATS-lərin "Kross"una birləşdirilib ki, bu da Eldar Mahmudova Beytulla Hüseynov üzərindən də istənilən şəxsi dinləməyə imkan verib. Beytulla Hüseynov azadlığa çaxırsa, əmlakları üzərindən həbs götürülürsə, onun azadlıqda olan himayəçisi Eldar Mahmudovun həbsi nə dərəcədə real ola bilər? Məsələnin bu tərəfi də var ki, Azərbaycanda mümkünsüz görünən bir çox işlər çox rahatlıqla gerçək ola bilir. Cəmiyyətin təpkisinin olmaması məmurlara cinayətlər etmək üçün geniş areal yaradır. Ən yaxşı halda baş verənlərdən cəmiyyətimiz duyğulana və ya xəyal qırıqlığına düçar ola bilər.

Parlamentin Müdafiə və təhlükəsizlik komitəsinin üzvü, deputat Zahid Oruc "MTN işi"nin 1 ilinin tamamında "Yeni Müsavat"a verdiyi müsahibədə Eldar Mahmudovun həbs edilməməsinin səbəblərindən danışmışdı. "MTN əməliyyatının 1 ili - deputatdan sensasion açıqlamalar" (http://musavat.com/news/olke/mtn-emeliyyatinin-1-ili-deputat-dan-sensasion-aiqlamalar_385540.html ) sərlövhəli müsahibəsində deputat "Mahmudovun şəxsən məhkəmə qarşısında dayanmaması insanlarda xəyal qırıqlığı yaradacaq. Adamlar şərin ölümsüzlüyünə və gücünə inanacaqlar. Buna yol vermək olmaz" demişdi.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016



# Dünya güclərinin hədəfində olan iki lider: Putin və Ərdoğan...

## Elxan Şahinoğlu: "Beynəlxalq birlik hər iki liderdən əlini üzüb"

**Hazırda dünya güclərinin əsas hədəfində olan iki lider var: Rusiya prezidenti Vladimir Putin və Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğandır. Açıq şəkildə niyyətlərini büruzə verməsələr də, dünyanın əksər dövlət başçıları Rusiya və Türkiyədə yeni simaları rəhbərlikdə görmək istəyirlər. Amma reallıq budur ki, dünya bu iki liderə hələ ki, uduzur.**

**Politoloq Elxan Şahinoğlu** Putin və Ərdoğanı birləşdirən oxşar cəhətlərin çox olduğunu söylədi: "İkisi də təxminən eyni vaxtda hakimiyyətə gəliblər. Yeltsin Putini 1999-cu ildə baş nazir təyin edib və o, bir ildən sonra hakimiyyətə gəlib. Hakimiyyəti gəldikləri ilk illərdə beynəlxalq aləmin bu iki liderə müəyyən ümidləri var idi. Ən çox da Ərdoğana. Çünki hakimiyyətə gələn kimi iqtisadi sıçrayış Türkiyədə oldu. Eyni ilə Rusiyada da oxşar proseslər getdi. Putinin hakimiyyətinin ilk illərində neftin qiyməti artdı və nəticədə Rusiya iqtisadiyyatı dirçəldi. Çeçenistana təcavüz olundu, qətliamlar törədildi, beynəlxalq aləmin reaksiyası da nəzərə alınmadı. 2001-ci il 11 sentyabrda Amerikada baş verən terrorda ilk dəstək də Putindən gəldi. Bu da Corc Buşun xoşuna gəldi və o, Putinə yaxınlaşdı. Hətta belə bir ifadəsi var idi ki, "mən onun gözünə baxdım, ona inanmaq olar". Amma zaman keçdikcə hər iki liderə qarşı beynəlxalq təzyiqlər artdı. Ərdoğanın avtoritarizmə meyllənməsi barədə fikirlər meydana çıxdı, siyasi sahələrdə islahatlar ləngidi, "kürd açılımı" dayandırıldı. Bunlar da beynəlxalq aləmin xoşuna gəlmədi. 15 iyuldan sonra da Ərdoğana qarşı münasibət daha da sərtləşdi. Həyata keçirilən həbslər pislәndi. Avropa İttifaqı da artıq ondan üz döndərib. Putinlə bağlı da eyni proseslər gedir. Rusiya Krımı işğal etməklə "qırmızı xətti" keçdi. Gürcüstanın parçalanmasına göz yuman Qərb Ukrayna məsələsini bağışlamadı. Nəticədə sanksiyalar meydana çıxdı. Bütün bunlardan sonra görürük ki, hər iki prezidentə qarşı ciddi təpkilər var. Amma buna baxmayaraq, onların ölkə daxilində reytinqləri yüksəkdir, xalq onları hər zaman dövlətin başına gətirir. Beynəlxalq aləm bu iki lideri uzaqlaşdırmağa çalışsa da, xalq onları xilas edir. Bu isə onu deməyə əsas verir ki, hələ bir müddət iki lider də hakimiyyət başında qalacaq. Beynəlxalq aləm artıq bu iki liderdən də yorulub. Təzyiqlər də əslində bununla əlaqədardır. Onların yürütdükləri siyasət də, şübhəsiz, səbəblərdən biridir. Deməzdim ki, Putin və Ərdoğana beynəlxalq birlik uduzur. Sadəcə, beynəlxalq aləm hər ikisindən daxili və xarici siyasətini dəyişməsini istəyir. Amma bunlar olmur və beynəlxalq birlik hər iki liderdən əlini üzüb. Tarixdə ilk dəfədir deyilir ki, Donald Trampın prezident seçilməsində Rusiyanın əli var. Suriyaya qoşun yeritməklə Rusiya Amerikaya meydan oxudu. Deyilirdi ki, ABŞ "rəngli inqilabı" Suriyada da etmək istəyirdi, lakin Putin imkan vermədi. Burada həqiqət var. Putin olmasaydı, Əsəd rejimi çoxdan getmişdi. Türkiyə də regionda oyunçuya çevrilmək istəyir, buna da müəyyən dərəcədə nail olub. Rusiya ilə yaxınlıq Qərbin xoşuna gəlmir. Tramp Obamadan fərqli siyasət aparacaq. Obama Putinlə yaxınlaşmağa çalışdı, mümkün olmadı. Müsəlman ölkəsi kimi ilk səfərini Türkiyəyə etdi, amma istənilən siyasət alınmadı. Tramp qarşısına məqsəd qoyub ki, Rusiya ilə dil tapıb, beynəlxalq terrorizmə qarşı birgə mübarizə aparacaq. Bu da Rusiya və Türkiyənin maraqlarına uyğundur. Tramp Türkiyə ilə də münasibətləri normallaşdırmağa çalışacaq, itirilmiş mövqeləri bərpa etmək üçün. Bunlar reallaşsa, beynəlxalq aləmdən iki ölkəyə də olan təzyiqlər səngiyəcək. Avropa Birliyi Amerika deməkdir. Təkbaşına zəif qurumdur. Üzv ölkələrin hər birinin öz maraqları var. ABŞ isə burada əsas gücdür. Tramp normal münasibətlər üçün addım atsa, Avropa Birliyi istəsə belə, iki dövlətə də təzyiq edə bilməyəcək, o cümlədən, Putin və Ərdoğana".

**Politoloq iki ölkədən birinin çökdürülməsinin Azərbaycana da ciddi təsir edəcəyi ilə bağlı fikirlərlə razıdır:** "Hər ikisi ölkəmiz üçün təhlükəlidir. Türkiyənin hər zaman güclü olmasını istəyirik, çünki bizim maraqlardan daim çıxış edən ölkədir. Rusiya Ermənistana dəstək versə də, bu ölkə ilə normal münasibətlərimiz var. Üstəgəl, milyonlarla azərbaycanlı orada yaşayır. Eyni zamanda Rusiyada təlatümlər başlasa, ən çox Şimalı Qafqazda hiss olunacaq. Bu baxımdan, Rusiyanın bu vəziyyətdə qalması təhlükəsizlik və milli maraqlarımıza görə bizə çox vacibdir. Azərbaycan nə Rusiyanın, nə də Türkiyənin zəifləməsində maraqlı deyil. Düzdür, Rusiyanın xarici siyasətində korrektələr etməsini çox istəyirik, xüsusilə Qarabağla bağlı mövqeyində. Amma Rusiya dağılma təhlükəsi yaşayarsa, bunun qəlpələri bizə də dəyə bilər. Bizə lazımdır ki, sabit, normal Rusiya olsun, xarici siyasətində ədalət prinsiplərindən çıxış etsin. Bunlar dəyişməsə belə, Rusiyanın parçalanmasını istəmirik. Çünki bizə təsirləri realdır".

❑ **Cavanşir ABBASLI**

# Kremlin təhlükəli planı - ABŞ-dan Bakıya yeni xəbərdarlıq

## Amerikanın "kölgə kəşfiyyatı"na görə, 2017 Rusiya üçün şans ili olacaq və...; gələn il Azərbaycan qarşısında strateji seçim məsələsi daha ciddi şəkildə dayana bilər; Ankara-Bakı müttəfiqliyi üçün yeni çağırışlar...

**ABŞ-ın yeni prezidenti Donald Trampın öz vəzifəsinə başlamasına 3 həftə qaldı. İndi əksər siyasi analitiklər onun Rusiya ilə, həmkarı Vladimir Putinlə münasibətləri necə quracağı haqda baş sındırır. Diqqətçəkicidir ki, artıq Trampın bu məsələdə təkbaşına hərəkət edə bilməyəcəyi haqda fikirlər üstünlük təşkil etməyə başlayıb. Hər necə olmasa, ABŞ-ın öz xarici prioritetləri və köklü maraqları var. Bu xüsusda yeni maraqlı şərhlər gəlməkdədir.**



"2017-ci ildə Rusiyanın Avrasiyada qüvvələr balansını öz xeyrinə dəyişmək şansı yaranacaq". Bu iddia ilə ABŞ-ın "Kölgə kəşfiyyatı" kimi tanınan "Stratfor" analitik şirkəti çıxış edib. Şirkətin ekspertlərinin fikrincə, Rusiyanın belə şansının yaranmasına Avropa Birliyi və ABŞ-da olan siyasi dəyişikliklər təsir edəcək.

"Böyük Britaniyadakı iyun referendumu AB daxilində dərin fikir ayrılıqlarının olduğunu göstərdi. ABŞ-da yeni prezidentin Donald Tramp olması Moskva-Vaşinqton münasibətlərində yeni dönəm başlada bilər. Avropa Birliyini daha ciddi parçalanma təhdid edir. Belə ki, əgər Fransa, Almaniya, Niderland və İtaliyada müxalif rejimlər hakimiyyətə gəlsə, AB-nin gələcək taleyi qaranlıq olacaq. Bütün bunlar Rusiyaya öz hədəflərinə çatmaq üçün ciddi şans verir", - deyə hesabatda qeyd olunur.

Şirkət həmçinin Moskvanın özünə bufer zona kimi gördüyü postsovet məkanında yenidən aktivləşəcəyini proqnoz edib: "Postsovet məkanında da Rusiyanın təsiri önəmli dərəcədə artacaq. Ənənəvi olaraq Moskva ilə yaxşı əlaqələri müdafiə edən bir sıra ölkələr - Belarus, Ermənistan, Qazaxıstan, Tacikistan və Qırğızıstanın Rusiya ilə əməkdaşlığı genişlənəcək. AB-nin bu ölkələrə təsiri çox zəifləyəcək. Azərbaycan və Özbəkistanda da Rusiya təsiri arta bilər. Bu ölkələrlə Moskva arasında əlaqələr təhlükəsizlik sferasında əməkdaşlığın inkişafı ilə bağlı artacaq. 2017-ci ildə həmçinin postsovet məkanının ən vacib təşkilatı olan Avrasiya İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının aktivliyi də çoxalacaq".

Lakin "Stratfor" hesab edir ki, bütün proseslərə rəğmən, ABŞ və AB-dəki güclü qruplar Rusiyaya tətbiq edilmiş sanksiyaların yumşaldılmasına qarşı mübarizəyə başlayacaq. "NATO qoşunları isə Rusiya sərhədindən kənara getməyəcək. Moskvanın postsovet məkanı və Qərblə münasibətlərdə öz mövqelərini gücləndirmək şansları hələ də çoxdur", - deyə amerikalı təhlilçilər düşünür.

***

Qeyd edək ki, bundan qabaq ABŞ-ın ölkəmizdəki və ATƏT-in Minsk Qrupundakı sabiq səfiri Metyu Brayza Rusiyanın enerjidaşıyıcıları məsələsindən istifadə edib, Azərbaycan və Gürcüstana təzyiqləri artıra biləcəyini proqnoz eləmişdi. Yəni belə görünür ki, ABŞ-Rusiya rəqabəti çoxşaxəli olmaqla, təkcə hərbi sferanı əhatə etməyəcək. Eyni zamanda Azərbaycanın yerləşdiyi Güney Qafqaz uğrunda kifayət qədər sərt mübarizənin gedəcəyini proqnoz eləmək mümkündür.

Demək, Bakının strateji seçim məsələsi daha aktuallığı ilə gündəmə gələ bilər - madam ki, böyük bir bölgə Rusiyanın maraqlar zonası kimi tanınacaq. Söhbət həm də Dağlıq Qarabağın taleyindən gedir. Odur ki, Trampın Ağ Evə sahiblənməsi ilə Rusiya ilə münasibətlərdə özünü göstərəcək ciddi gəlişmələrlə bağlı rəsmi Bakı yeni imperativlərə olduqca çevik reaksiya göstərmək zorundadır.

Nəzərə alsaq ki, gələn il Ankara-Moskva əlaqələrinin də yüksəlişdə olacağı gözlənilir, o zaman ən optimalı bu olardı ki, Azərbaycan öz xarici siyasətini, Dağlıq Qarabağ strategiyasını öncəliklə qardaş Türkiyə ilə birgə, sinxron şəkildə izləsin. Həm də o səbəbə ki, bir çox təhlilçilərə görə, Moskva-Ankara əlaqələrinin inkişafı Türkiyənin Qarabağ məsələsinin həllində təsirinin güclənməsi ilə müşayiət olunacaq. Onu da unutmaq olmaz ki, Rusiya və NATO üzvü Türkiyə nə qədər isti münasibətlərdə olsa da, onlar dolayısıyla regional rəqiblərdir.

***

Maraqlıdır ki, az öncə ABŞ-ın sabiq dövlət katibi Henri Kissincerin Rusiya ilə münasibətləri normallaşdırmaq üçün plan işləyib hazırladığı haqda xəbər yayılmışdı. "Bild" nəşrinin yazdığına görə, Kissincer Ukrayna münaqişəsinin həlli yolunda ABŞ və Rusiya arasında vasitəçi olacaq. Kissincerin düşüncəsinə görə, ABŞ Rusiya ilə günü-gündən qüvvətlənən Çinə qarşı birləşməyə ehtiyac duyur.

Hətta məqalə müəllifləri bir az da irəli gedərək qeyd ediblər ki, D.Tramp Kissincerin məsləhəti ilə Rusiyaya qarşı sanksiyaları ləğv də, Krım məsələsini isə unuda bilər. İddialara görə, Kissincer Rusiyanın Belarusdan tutmuş Ukrayna, Gürcüstan və Qazaxıstan kimi keçmiş sovet ölkələrinin üzərindəki "ağalığını" dəstəkləyir. Bu isə o deməkdir ki, ABŞ Rusiyanın Polşadan Çinə qədər ərazilərdəki nüfuzunu etiraf edir.

Bir sözlə, önümüzdəki aylarda Azərbaycan da daxil, böyük bir bölgəni yeni və tarixi bir dönəm gözləyir.

❑ **Siyasət şöbəsi**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016



# Rusiyanın yeni Qarabağ vədi - reallıq nikbinliyə əsas verirmi?

## Kremlin regiondakı prioritetləri arasında hərbi maraqlar hələ ki öndədir; "Rus NATO-su"nun başına erməninin gətirilməməsi işğalçı ölkədə Moskvaya qarşı narazılığı artırdı; **erməni analitik:** "KTMT-nin baş katibi məsələsinin 3-cü dəfə təxirə salınması onu göstərir ki..."

**2016-cı il Qarabağ münaqişəsi tarixində atəşkəsin ilk dəfə geniş miqyasda pozulması ilı yanaşı, yəqin ki, həm də sülh danışıqları baxımından ən passiv illərdən biri kimi qalacaq. Təkcə o fakt ki, bu il prezidentlərin cəmi iki görüşü (Vyana və Sankt-Peterburq) mümkün olub, özlüyündə çox şey deyir. Ən təhlükəsi odur ki, bu il konfliktin həllində real irəliləyişin əldə olunması, status-kvonun pozitivə dəyişməsi və növbəti ildə müharibə riskinin minimuma enməsi üçün baza, əsas yaradılmadı.**

Deməli ki, bunda yalnız işğalçı Ermənistan günahkardır, bir qədər insafsızlıq olardı. Bir o qədər günah payı ixtilafın həllindən özünü kənarlaşdırmış ABŞ-ın və əlbəttə ki, problemin çözümündə müstəsna potensialından sui- istifadə edən Rusiyaya məxsusdur. Aprel döyüşlərindən sonrakı danışıqlar prosesi göstərdi ki, Moskva məsələnin həllində real irəliləyişə təkan verməyə ya hazır deyil, ya da sadəcə, bunu arzulamır.

Bütün bunların fonunda Rusiya XİN-in sözçüsü Mariya Zaxarovanın "Rusiya gələn il problemin həllində səylərini davam etdirəcək" fikri, yumşaq desək, ciddi səslənmir. Rəsmi Kreml illərdir bənzər bəyanatlar versə də, real həyatda bu bəyanatların heç bir təzahürünü görmürük. Halbuki problemin həll açarı böyük ölçüdə məhz Moskvadadır. Nə vaxta qədər ki, Rusiya Ermənistana işğalçı kimi deyil, öz forpostu və müttəfiqi kimi baxacaq, aydındır ki, o vaxtadək də bu "açar" istifadəsiz qalacaq. Ancaq təbii ki, ən böyük səbəbkar təcavüzkar Ermənistandır.

***

"Ermənistan xoşniyyətli danışıqlar aparmaq əvəzinə, münaqişənin sülh yolu ilə həllinə yönəlik bütün cəhdləri açıq şəkildə pozur. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə məhəl qoymayan və beynəlxalq hüququ kobud şəkildə pozan Ermənistan öz qoşunlarını işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmaqdan imtina edir, qanlı etnik təmizləmə nəticəsində məcburi köçkünə çevrilmiş yüz minlərlə azərbaycanlının öz doğma yurd-yuvalarına geri qayıtmasının qarşısını alır və işğal olunmuş ərazilərin fiziki, demoqrafik və mədəni xarakterini dəyişdirməklə mövcud status-kvonu daha da gücləndirməyə çalışır".

**Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov AzərTAc-a son müsahibəsində bildirib. Nazir Dağlıq Qarabağ münaqişəsinin həllində hər hansı irəliləyişin olmasına imkan verməmək üçün Ermənistanın həmişə təxribatçı əməllərə əl atdığını xatırladıb:** "2014-cü ilin sonunda prezidentlərin Paris görüşündən sonra Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində 40 mindən çox şəxsi heyətin iştirakı ilə hərbi təlimlərə başladı və məlum helikopter insidentinin baş verməsinə rəvac verərək vəziyyəti gərginləşdirdi. 2015-ci il ərzində və 2016-cı ilin əvvəlində də münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə edildiyi halda, Ermənistan tərəfi hücum xarakterli yeni hərbi doktrina qəbul etdi və aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerlərini ağır silahlardan atəşə tutaraq, məlum aprel hadisələrinin baş verməsinin səbəbkarı oldu. Ermənistanın məsuliyyətsiz hücumları nəticəsində uşaqlar da daxil olmaqla, 6 nəfər həlak oldu, 33 nəfər ciddi yaralandı. Beynəlxalq ictimaiyyət bir daha şahidi oldu ki, status-kvonun saxlanması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu münaqişə zonasında gərginliyin əsas səbəbidir və münaqişənin siyasi həllinə başlıca maneə olaraq qalmaqdadır".

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin dövlət başçıları səviyyəsində dəfələrlə status-kvonun qəbuledilməz və qeyri-davamlı olması barədə bəyanatlarla çıxış etdiklərini yada salan XİN başçısı Azərbaycanın hazırkı status-kvonun dəyişməsində ən maraqlı tərəf olduğunu diqqətə çatdırıb:** "Bu xüsusda, biz Vyana və Sankt-Peterburqdakı yüksək səviyyəli substantiv müzakirələri doğru istiqamətdə atılmış müsbət addımlar kimi qiymətləndiririk. Biz bu fürsəti davam etdirməli və həmin görüşlərdə əldə olunmuş razılaşmaları gecikdirmədən konkret tədbirlərə çevirməliyik".




***

Ancaq çevirmək mümkün olacaqmı? Təəssüf ki, siyasi ekspertlərin bu xüsusda proqnozları nikbin deyil. Bu da özəlliklə təcavüzkarın Rusiya kimi etibarlı hərbi-siyasi müttəfiqə malik olmasıdır. Daha doğrusu, Kremlin Ermənistana bölgədəki yeganə hərbi forpostu kimi baxması onun Qarabağ məsələsinə yanaşmasını da xeyli dərəcədə müəyyən edir.

Vəziyyətə mürəkkəblik gətirən isə həm də "Rus NATO"su deyilən KTMT-nin mövcudluğu və bu təşkilat çərçivəsində təcavüzkar ölkəyə əlavə təhlükəsizlik qarantı verilməsidir. Hərçənd qurumun son Sankt-Peterburq sammitində İrəvanı pərt edəcək qərar verilib. KTMT-nin baş katibi postuna erməni generalın gətirilməsi məsələsi növbəti, üçüncü dəfə ertələnib. Bu da Ermənistanda Rusiyaya qarşı yeni narazılıq dalğası doğurub.

**Musavat.com-un məlumatına görə, açıq-aşkar görünür ki, Rusiyanın yaratdığı hərbi quruma daxil olan dövlətlərdən heç birinin təşkilatın silahlı qüvvələrinə bir erməni hərbçisinin rəhbərlik etməsi ürəyincə deyil. Bunu Ermənistan mətbuatında da etiraf edirlər.**

"Görünən budur ki, ya Ermənistan baş katib postuna görə KTMT üzvlərinin onun qarşısında irəli sürdüyü şərtlərlə razılaşmır, ya da təşkilatın bir və ya bir neçə üzvü baş katib vəzifəsini Ermənistana vermək istəmir",- analitik Aram Amatuni yazır. "Hər halda, KTMT-nin baş katibi məsələsinin artıq 3-cü dəfə təxirə salınması onu göstərir ki, biz KTMT adı altında hər kəsin ümumi maraqlara sahib olduğu hərbi-siyasi alyansı və ya ittifaqı deyil, vəzifə etibarı ilə icraedici, habelə koordinator funksiyası daşıyan adi bir vəzifəni seçə bilməyən, bizə qarşı anti-ittifaq mövqeyində duran bir təşkilatla üz-üzə qalmışıq. Halbuki bu kimi məsələlər NATO-da olduqca tez və asan həll edilir. Bu yaxınlarda 20 illiyi tamam olacaq KTMT isə baş katibin seçilməsi məsələsində aciz qalıb", - erməni analitik yazıb.

**Erməni müəllifin fikrincə, bu, təşkilatın struktur olaraq baş tutmamasını göstərir.** "Təşkilatda ümumi maraqların və təhlükəsizliyin ümumi formulunun mövcud olmaması Ermənistan üçün sirr deyil. Ermənistan bunu Qarabağ münaqişəsinin nizamlanması məsələsində daima hiss edir. Təşkilatın lideri sayılan Rusiya Ermənistanı müharibə ilə hədələyən Azərbaycana hərbi-texniki dəstək göstərir, aprel döyüşləri zamanı isə Belarus prezidenti Aleksandr Lukaşenko və Qazaxıstan prezidenti Nursultan Nazarbayev həm KTMT, həm də Avrasiya İqtisadi İttifaqında Azərbaycan prezidenti İlham Əliyevin Ermənistanın ləyaqətini alçaldan istəklərini yerinə yetirməklə fərqlənib",- Amatuni ardınca qeyd edib. Onun fikrincə, Ermənistan özü baş katib məsələsinə qurumun digər üzvlərinin Azərbaycana qarşı vahid mövqe tutmaları halında razılıq verməlidir.

***

Məsələ ilə bağlı Ermənistanın rəsmi dairələri isə kəskin bəyanatlar verməkdən çəkinir. Belə ki, KTMT-nin Sankt-Peterburq sammitində baş katib vəzifəsinə Ermənistan nümayəndəsinin seçilməməsi faktını Ermənistan prezidentinin mətbuat xidməti orada kvorumun olmaması ilə izah edib.

Ermənistan parlamentinin hakim Respublika Partiyası fraksiyasından xarici əlaqələr komissiyasını üzvü Samvel Fərmanyan isə AzadlıqRadiosunun Ermənistan bürosuna verdiyi müsahibədə situasiyanı özünəməxsus tərzdə şərh edib. "Ermənistanda başa düşməlidirlər ki, ölkənin KTMT-yə üzvlüyü Rusiya və Ermənistan arasında hərbi-siyasi münasibətlərin bir davamıdır. Buna görə də bu təşkilata böyük ümidlər bəsləməyin adı yoxdur", - Fərmanyan qeyd edib.

"KTMT baş katibinin təyinatı, bildiyiniz kimi, konsensus əsasında həyata keçirilir. Yəni baş katibin seçkisində bütün ölkələrin rəhbərləri iştirak etməlidirlər. İndi necə ola bilər ki, birinci dəfə İrəvana Nazarbayev, ikinci dəfə isə Sankt-Peterburqa Lukaşenko gəlməyib? Üçüncü dəfə necə olacaq, bilinmir", - Fərmanyan narazılığını ifadə edib.

Ancaq erməni tərəfinin xüsusi narahatlığına əsas da yoxdur. Çünki Rusiya Ermənistanın "ətini yesə də, sümüyünü atmaz".

YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016



# Böyük partlayışlar günü yaxınlaşır

Samir SARI

**Bir neçə gün öncə, bazar günü həyətə düşmüşdüm. Elə ayağımı blokdan bayıra atmışdım ki, atışma başladı - gurultu, partıltı, hay-haray, qışqırıq-filan.**

Amma mən qəti həyəcanlanmadım, özümü qəfildən İraqa, Suriyaya düşmüş adam hesab etmədim. Əvvəldən bilirdim ki, sabit ölkədə yaşayırıq, bizdə hələm-hələm küçədə atışma düşmür.

Eləcə, partlayıcı maddənin biri düz ayağımın altında partlayanda istər-istəməz qorxdum və özümdən asılı olmayaraq bərkdən dedim: "Köpəyuşağı, nə qayırırsınız?"

"Terrorçular" məndən belə bir sərt reaksiya gözləmirdilər, ona görə də təxminən 15 metr kənara qaçıb dedilər, əmi, vallah, qəsdən eləmədik.

Ta nə deyəsən, dallarınca düşüb qovmalı, tutub şapalaqlamalı deyil ki. Uşaqdırlar, yeniyetmədirlər. Hər il bu vədələr həyətlərdə, məhəllələrdə belə atışma salır, partlayış törədirlər.

Gördüyünüz kimi, bir əvvəlki cümlədə "atışma" və "partlayış" sözlərini dırnaqda yazmamışam. Ona görə ki, gerçəkdən də elə br təfavütü yoxdur, eyni səs effekti alınır, adamlar da təxminən eyni cür qorxur.

Bircə şükür eləməli cəhət odur ki, bizim uşaqların törətdiyi partlayışlarda ölüm-itim, yaralı-maralı olmur, eləcə, böyüklər yüngül qorxuyla, uşaqlar isə xəfif söyüşlə canlarını qurtarır.

Bu yerdə adam az qalır yazsın ki, "biz uşaq olanda..." Amma vicdanlı olmaq lazımdır. Biz uşaq olanda bunlardan da betər idik. Kibrit çöplərinin kükürdündən partladıcı maddələr düzəldir, oyuncaq tapançalar qayırır, atışma, səs-küy salırdıq. Hətta elə uşaqlar vardı ki, traktorların forsunkasından tapança düzəltmiş və hardansa vintovka gülləsi tapmış, əməlli-başlı odlu silah əmələ gətirmişdilər.

Nəyə görəsə uşaqlarda partlayışa, atışmaya, savaşa güclü bir ehtiras olur, "dava-dava" oynamaqdan bezmirlər.

Çin dövləti də uşaqların bu həvəsini bildiyindəndir ki, onların yolda-rizdə, küçədə, məhəllədə partlayışlar törətmələri üçün müxtəlif vasitələr istehsal edir. Hər il bu vaxtlar ölkəyə gətirilən partlağanlarla bəlkə də Lələtəpənin ətrafındakı adsız yüksəkliklərdən bir neçəsini də düşməndən azad etmək olar.

Budur, xəbər var ki, gömrükdə 3424 ədəd pirotexniki vasitələr aşkar edilərək götürülüb. Bu hələ "Sınıq Körpü" gömrük postunda tutulan partlağanlardır. Son bir ayda ölkənin bütün gömrük postlarında hər gün bu cür partladıcı maddələr tutulur.

Amma belə görünür ki, ya gömrükçülər o qədər ayıq-sayıq deyillər və ölkəyə partlağan gətirənlər onları aldada bilirlər, ya da gömrükçülər sahibkarlardan müsadirə etdikləri partlağanları sonradan bazarlara çıxarıb satdırırlar.

Hər nədirsə, ölkədə 7-15 yaş arasından nə qədər uşaq və yeniyetmə varsa, 90 faizinin cəbbəxanasında artıq kifayət qədər partlağan var. Onlar dekabr ayı boyunca məhəlləmizdəki atəşkəsi azı 200 dəfə pozublar. Amma əsas atəşfəşanlığı dekabrın 31-nə saxlayırlar. Həmin gün uşaqlar şəhərin sakit məhəllələrini rəsmən Hələbə döndərəcəklər.

Uzun illərdir ki, belədir. Ən şiddətli atəşfəşanlıq 2000-ci ildə olmuşdu. O zaman uşaqlar lap gündüzdən başlamşdılar. Yaxşı yadımdadır, 208 saylı marşrutla Yasamala gedirdim. Yasamal bazarına çatmağa təxminən 70-80 metr qalmış, mikroavtobusumuzun təkərinin altına qəfildən babat bir partlağan atdılar. Güclü partlayış səsi gəldi. 30-35 yaşlı sürücümüz çox pis qorxdu, əllərini sükandan ayırıb başını tutdu, daha sonra əlini başından düşən kepkasına apardı, sonra gözünü açdı, artıq yoldan çıxmaqda olan "RAF"ın sükanından yapışdı, güzgüdən baxdı ki, bunun bu cür reaksiyasına gülənlər var, özünün də gülməyi tutdu və salona müraciətlə dedi: "Neynim, ala, köpəyuşağı savsem çurban elyib bizi".

İndi o sürücünün vəziyyətinə düşməmək üçün atəşfəşanlıq eşqi ilə alışıb-yanan uşaqlardan qorunmağın yollarını düşünmək lazımdır. Hökumətdən kömək yoxdur. Gömrükçülər partlağanların yığışdırıb qurtara bilmirlər. Əlac ona qalır ki, uşaq və yeniyetmə valideynləri evdə profilaktik iş aparsınlar, ən azı onlara and içdirsinlər ki, heç olmasa yaşlı adamların, qadınların ayağının altına partlağan atmasınlar.



# 300 müəllimin 0 bal yığmasının müdhiş səbəbləri

## Etibar Əliyev: "Minlərlə müəllim saxta diplomla müəllimlik edib və edir"

**Bu il cənub bölgəsində (Lerik, Yardımlı, Astara, Masallı, Lənkəran) baş tutan müəllimlərin diaqnostik imtahanında 7426 nəfər iştirak edib. İmtahanda iştirak edən 2764 ibtidai sinif müəllimindən 269-u, 704 riyaziyyat müəllimindən isə 33 nəfəri tədris etdiyi fəndən 0 (sıfır) qiymət alıb.**

Bu isə həmin fənni tədris edən müəllimlərin bilik səviyyəsinin heç olmadığını və onların qarşısında oturan şagirdlərə də heç nə aşılaya bilmədiklərini deməyə əsas verir. Bu barədə **təhsil eksperti Kamran Əsədov** publika.az-a açıqlamasında deyib. Ekspert rəqəmləri rayon təhsil şöbələrindən, rəsmi mənbələrdən əldə etdiyini bildirib.

**Bu rayonlar üzrə nəticələrin çox aşağı olduğunu deyən ekspert paytaxtda da məlumatların ürəkaçan olmadığını qeyd edib:** "2014-cü ildən bu vaxta qədər keçirilən imtahanlarda iştirak etmiş, paytaxt məktəblərində çalışan müəllimlərin 15 faizinin tədris etdiyi fəndən anlayışı olmadığı müəyyən olunub. İmtahanda 60 sualdan 40-ı müəllimin tədris etdiyi fənn, 20-si metodikadandır. Ümumilikdə 6 suala cavab verən (10 faizdən yüksək nəticə göstərən) müəllim diaqnostik qiymətləndirmədən keçmiş hesab edilir. Bakıda müəllimlərdən 15 faizi öz fənnindən 4, metodikada 2 suala düzgün cavab verməyib. 60 faiz isə orta nəticə göstərib. Bu vaxta qədər keçirilən diaqnostik qiymətləndirmədə yalnız 3 müəllim maksimum nəticə göstərib. Görün övladlarımıza kimlər savad, bilik verir".

**Ekspertin fikrincə, imtahan suallarının çətinlik dərəcəsinin artırılması vacibdir:** "Təklif edirəm ki, qısa müddət ərzində müəllimlərin ciddi şəkildə attestasiyası keçirilsin və bunu neytral bir qurum reallaşdırsın. Sadə suallar yox, normal səviyyədə olan suallar verilsin. Bundan sonra imtahandan keçən müəllimə dövlət qulluqçusu statusu vermək və əmək haqqını ciddi şəkildə qaldırmaq olar".

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev nəticələrin ürəkaçan olmamasının bir neçə səbəbi olduğunu dedi:** "Birincisi, 15 il təhsil naziri vəzifəsində işləmiş Misir Mərdanovun vaxtında müəllimlərin bilikləri hər hansı formada qiymətləndirilmədi. Attestasiya keçirilmədi. Başları başqa işlərə qarışmışdı. Pedaqoji kadrlar hazırlayan ali və orta ixtisas təhsili məktəblərində təhsil alan tələbələrin böyük kəsimi sessiyaları tapşırıq və rüşvətlə yola veriblər. Minlərlə müəllim saxta diploma müəllimlik edib və edir. Orta məktəblərdə dərs deyən müəllimlərin biliyinin qiymətləndirilməsi ideyası Mikayıl Cabbarova məxsusdur. Tətbiq olunan diaqnostik imtahanların əhəmiyyətini indi artıq dərk edirik. Bunun müəllimlərin əmək haqqına müsbət təsiri ilə yanaşı, həm də mənəvi əhəmiyyəti oldu. Bu prosesə müqavimət göstərənlər indi görürlər ki, imtahan metodu müəllimin üzərinə məsuliyyət qoyur. Onu tanıtdırır. Bu gün müəllimlərin əmək haqqından danışanda dünyanın inkişaf etmiş ölkələrinin müəllimlərinin əmək haqqını misal gətirirlər. O ölkələrdə müəllimlər keyfiyyətə cavabdehlik daşıyırlar. Bizdə isə fənnindən kəsilən, yaxud aşağı nəticə göstərən müəllim heç öz biliyi barədə danışmır. Ötən əsrin ortalarında texnikum bitirən müəllimlər bir neçə fənni tədris edirlərmiş. Bu, müəllim çatışmazlığı ilə bağlı olan məsələ idi. Gecə-gündüz çalışırdılar. İndi müəllimlər öz fənlərini yetərincə tədris edə bilmirlər. Belə olan halda fənni uşaqlara necə sevdirmək olar? Elə mexanizmlər düşünmək lazımdır ki, keyfiyyətsiz dərs deyən müəllimin özü tədrisdən aralansın. Müasir dünyada orta təhsilin qarşısında mühüm vəzifələr qoyulur. Məncə, bu vəzifələrin icrası üçün müəllim üzərinə düşən məsuliyyəti dərk etməlidir. İmtahandan kəsilən müəllimin şagirdlərin qarşısına çıxmağa haqqı yoxdur".

❑ Günel MANAFLI

# Naxçıvandan Məşhədə niyə frankla gedək?

## "Azərbaycan Dəmir Yolları" QSC-nin rəsmisi: "Beynəlxalq hesablaşmalar bu valyuta ilə aparılır"

**Dekabrın 29-da Naxçıvan-Məşhəd-Naxçıvan sürət qatarı hərəkətə başlayacaq. Bu sürət qatarı həftədə iki dəfə (dördüncü və bazar günləri) sərnişin daşıyacaq.**

Bildirilir ki, üç vaqondan ibarət 108 yerlik qatar Naxçıvan, Culfa, Təbriz, Tehran və Məşhəd marşrutu üzrə hərəkət edəcək. AzadlıqRadiosu-nun məlumatına görə, marşrut üzrə bir tərəfə biletin qiyməti 40 İsveçrə frankıdır.

Məlumat üçün qeyd edək ki, Naxçıvan və Culfa dəmir yolu stansiyalarında bilet satışına dekabrın 24-də başlanıb. Satış nağd qaydada aparılır. Elektron bilet satışının təşkili tamamlanmayıb.

Onu da qeyd edək ki, bir İsveçrə frankı hazırda 1.71 AZN-dir. Bu isə o deməkdir ki, qatarda bir tərəfə biletin qiyməti 68.4 AZN-dir.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov bildirib ki, qiymət hər iki tərəfin razılığı əsasında təyin olunub:** "Azərbaycandan bilet alan yerli valyutamızla pulu ödəyib, biletini alacaq. Qiymətin İsveçrə frankı ilə göstərilməsinin səbəbi odur ki, beynəlxalq hesablaşmalar bu valyuta ilə aparılır. Dolların məzənnəsi dəyişkən olduğu üçün biz beynəlxalq istiqamətdə yük və sərnişin daşımaları üzrə ödənişi İsveçrə frankı ilə edirik. Qatar 29-da hərəkətə başlayacaq. Qiymətin baha olduğunu söyləmək olmaz. Burada xəttin uzunluğu və digər bu kimi məsələlər nəzərə alınıb. Qiymət hər iki tərəfin razılığı ilə təyin olunur. Danışıqlar aparılır, görüşlər keçirilir və bu əsnada qiymətlər də müzakirə olunur. Nəticədə ortaq razılığa gəlinir. Bəhs etdiyimiz xətt üzrə də eyni proseslər həyata keçirilir".



❑ Əli RAİS

YENİ MÜSAVAT N 291 (6612) 29 dekabr 2016

**Dövlət başçısı İlham Əliyev 2017-ci il dövlət büdcəsi haqqında qanunu təsdiqləyib. Ölkə başçısı bununla bağlı müvafiq fərman imzalayıb. Sənədə əsasən, 2017-ci il dövlət büdcəsinin gəlirləri 16 milyard 255 milyon manat, xərcləri 16 milyard 900 milyon manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 15 milyard 634 milyon 706 min manat, yerli gəlirləri 620 milyon 294 min manat, mərkəzləşdirilmiş xərcləri 16 milyard 211 milyon 286 min manat, yerli xərcləri 688 milyon 714 min manat) məbləğində təsdiq edilib. Ekspertlər musavat.com-a gələn ilin büdcəsini dəyərləndiriblər.**

# 2017-ci il büdcəsi təsdiqləndi - ekspertlər "çətin olacaq" deyir

## Gələn il hökuməti 10 milyard manata yaxın borc götürmək niyyətindədir



**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, büdcənin ümumi təsnifatı inkişafa və iqtisadi artıma hesablanmış büdcə olmadığını göstərir: "Problemləri bacardıqca yola verməyə çalışan büdcədir. Sosial xərclərdən tutmuş iqtisadi layihələrə qədər hamısında azalmalar var. Bu azalmalar və ümumiyyətlə, büdcənin quruluşu onu göstərir ki, gələn ilin büdcəsi iqtisadi yüksəliş üçün nəzərdə tutulmuş büdcə deyil. İqtisadiyyatda yaranmış problemləri həll etmək, iqtisadiyyatın yavaşlamasının qarşısını almaq üçün nəzərdə tutulmuş büdcə deyil. Azərbaycanda uzun illərdir çox primitiv bir model qurulub. Büdcə xərcləri, əsasən də təmir-tikinti xərcləri iqtisadi aktivliyin lokomotivi idi. Büdcədən ayrılan vəsait hesabına iqtisadiyyatda sürətli inkişaf olurdu. Amma son iki ildə belə bir modelin dayanıqlı olmadığı ortaya çıxdı. Bir neçə il bundan öncə məşhur analoqu olmayan inkişaf modeli deyilən bir model buna görə formalaşmışdı. Büdcədən kifayət qədər böyük həcmdə investisiya xərcləri ayrılırdı. İnvestisiya xərcləri hesabına iqtisadiyyatda canlanma müşahidə olunurdu. İnvestisiya xərcləri də, təmir-tikinti xərcləri də gələn il azaldılıb. Bütün bu azalmalar iqtisadi aktivliyə mənfi təsir göstərir. Büdcənin özünün fəlsəfəsi, yanaşması, strukturu iqtisadi aktivliyin stimullaşdırılması üçün kifayət edəcək büdcə deyil".

**Ekspertin sözlərinə görə, bu il baş verən proseslərin gələn il davamını görə bilərik:** "Bu il çox çətin, ağır bir il oldu. Həm ümumi daxili məhsul azaldı, ikirəqəmli inflyasiya oldu, iş yerlərinin azalması, real gəlirlərin azalması müşahidə olundu. Gələn il də bu problemlərlə qarşılaşacağıq. 2017-ci il büdcəsi bu problemlərdə bir dönüş nöqtəsi yaratmaq üçün kifayət deyil. Büdcə ancaq yaranmış situasiyanı müəyyən dərəcədə idarə etmək üçün hesablanmış büdcədir. Həm xərclər hissəsinin kifayət qədər azalması, gəlirlər hissəsinin də azalması bunu göstərir. Büdcə kəsirində artım müşahidə olunur. Büdcəyə Azərbaycanın borclanmasının sürətlənməsini nəzərdə tutan bəzi parametrlər də daxil edilib. Gələn il Azərbaycan hökumətinə 10 milyard manata yaxın borc götürmək üçün bir koridor açılıb. Bu da indiki məzənnə ilə təxminən 7 milyard dollara yaxın vəsaitdir. Bu da gələn il borclanmanın daha da sürətlənməsi ehtimalını artırır. Əslində gələn ilin büdcəsinin təsnifatı onu deməyə əsas verir ki, 2017-ci il heç də 2016-cı ildən asan il olmayacaq".

**Qubad İbadoğlu isə qeyd edib ki, növbəti il üçün dövlət büdcəsi proqnozlarla kiçilsə də, onun reallığı da şübhə doğurur:** "Hesablamalar göstərir ki, yeni təsdiq edilmiş dövlət büdcəsi 2008-ci il də daxil olmaqla, indiyə qədər formalaşan dövlət büdcələri arasında dollar ifadəsində ən kiçiyi olacaq. Eyni zamanda müqayisələr də göstərir ki, yeni büdcənin dollar ifadəsində adambaşına düşən xərcləri qonşu Qafqaz ölkələrindən belə aşağıdır. Növbəti il üçün dövlət büdcəsi hətta proqnozlarla kiçilsə də onun reallığı da şübhə doğurur. Çünki 2017-ci il büdcəsi 2005-ci ildən sonra ilk dəfə olaraq formalaşdırdığı büdcənin gəlirlərinin yarıdan çoxunu qeyri-neft sektorundan daxilolmalar hesabına təmin etməyi nəzərdə tutur. Bu isə xüsusilə də vergi orqanlarının qarşısında ciddi vəzifələr qoyur. Nəzərə alaq ki, artıq ilin sonudur. Yaxın günlərdə cari ilin büdcəsi tam xərclənərək boşalacaq, bundan əlavə, bu ilin sonuna büdcədə kəsir yaranacaq. Gözləntilərə görə, 2016-cı ilin büdcə kəsirinin məbləği 1 milyard manatdan çox olacaq ki, bu da Azərbaycanın büdcə tarixində ən böyük kəsiri hesab oluna bilər".

**Ekspertin sözlərinə görə, beləliklə də Prezidentin Ehtiyat Fondu istisna olmaqla, yeni ilə sıfırlanan büdcənin mədaxilinin təminatı əsas yükü üzərinə götürən qeyri-neft bölməsinin durumundan asılı olacaq:** "Milli iqtisadiyyatın da ən çox problemləri bu sektorda müşahidə olunur. Qeyri-neft ÜDM-nin tənəzzülü artıq 6 faizə yaxınlaşır, bu il ərzində qeyri-neft ixracat potensialı ötən ilin eyni dövrü ilə müqayisədə üçünü saxlaya bilib, idxal da ötən illə müqayisədə azalıb, mədaxilin 14 faizini təşkil edən hüquqi şəxslərin mənfəət vergisi 228 milyon manat azalıb, digər daxilolmalar üzrə azalma 1 milyard 960 milyon manat olub. Bununla yanaşı, növbəti il ərzində iş yerlərinin ixtisarının çoxalması, əmək haqlarının aşağı salınması hesabına fiziki şəxslərin gəlir vergisi, zərərlə işləyən müəssisələrin sayının artması və rentabelli müəssisələrin fəaliyyətində mənfəətin azalmasına görə hüquqi şəxslərin mənfəət vergisi, idxalın azalmasına görə ƏDV və gömrük rüsumları, neft hasilatının aşağı düşməsinə görə ARDNŞ-in və ABƏŞ-in ödənişlərində azalmaların qeydə alınması həmin mənbələrdən büdcə mədaxilinin formalaşmasında ciddi çətinlik yaradacaq. Bu, xüsusilə də gələn ilin 1-ci rübündə daha qabarıq müşahidə olunacaq. Odur ki, yeganə ümid vergi amnistiyası adı ilə 2017-ci ilə qədər olan borcların 70 faizə qədərinin yığılmasınadır. Amma unutmayaq ki, mövcud vergi borclarının xeyli hissəsi dövlət şirkətlərinə şəxslərə, özəl şirkətlərə gəlincə, onlara məxsus olan borcları müxtəlif məhdudiyyətlərlə geri almaqda çətinlik çəkən Vergilər Nazirliyinə könüllü borc toplanması o qədər də asan başa gəlməyəcək".

❑ RÖYA



# Nazirlər bu səbəbdən mətbuat konfransı keçirmir - YAP açıqladı

## Hüseyn Paşayev: "...Hər hansı tərəfin imtinasından söhbət getmir"

**Yeni Azərbaycan Partiyası (YAP) vaxtilə öz qərargahında nazirlərin, komitə sədrlərinin mətbuat konfranslarını təşkil edirdi. Jurnalistlər bu cür tədbirlərdə onları maraqlandıran sualların heç olmasa, bir hissəsinə cavab ala bilirdilər. Həmçinin ölkədə baş verən, aktual olan məsələlərə aidiyyəti şəxslərin, aidiyyəti qurumların birinci şəxslərinin mövqelərini ala bilirdilər. Uzun müddətdir ki, jurnalistlər üçün bu cür tədbirlər dayandırılıb. Artıq əksər nazirlər, komitə sədrləri hətta öz mətbuat xidmətləri səviyyəsində suallara cavab vermək həvəsində deyillər. YAP-ın qərargahında mətbuat konfranslarının keçirilməməsinin səbəbləri nədir? Hansısa tərəf bundan imtina edib, yoxsa başqa bir səbəb var? Bu cür mətbuat konfranslarının keçirilməsi ənənəsinin ləğvinin səbəblərini YAP-ın mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayevdən soruşduq. YAP təmsilçisi bunun səbəblərini musavat.com-a açıqladı.**

Onun sözlərinə görə, ayrı-ayrı struktur rəhbərlərinin, komitə sədrlərinin, nazirlərin YAP-ın qərargahında mətbuat konfranslarının keçirilməsi ideyası elə YAP rəhbərliyi tərəfindən gəlmişdi: "Bu təşəbbüs aidiyyəti qurumların rəhbərləri tərəfindən çox müsbət də qarşılanmışdı. Bu təşəbbüs də reallaşdı və qarşıya qoyduğumuz məqsədə nail ola bildik. Qarşıya qoyduğumuz məqsəd ondan ibarət idi ki, medianın informasiyaya əlçatanlığı asanlaşsın. YAP bu təşəbbüsü irəli sürən ərəfədə Azərbaycanda informasiya vasitələrinin nümayəndələrinin rəhbər şəxslərə, strukturların birinci şəxslərinə çıxışları indiki qədər asan deyildi. Bir qədər informasiya qıtlığı yaşanırdı. Ona görə də YAP kütləvi informasiya vasitələrinin nümayəndələri ilə rəhbər şəxslər arasında bir növ vasitəçi missiyasını üzərinə götürdü. Qarşıya qoyduğu məqsədə də nail ola bildi. Biz hesab etdik ki, artıq kütləvi informasiya vasitələrinin nümayəndələri ilə müxtəlif strukturların birinci şəxsləri arasında bu əlaqəni qura bilmişik. KİV-lərin bu şəxslərə çıxışını təmin edə bilmişik. Bu informasiya qıtlığını aradan qaldıra bilmişik. Ona görə də artıq bu cür mətbuat konfranslarının keçirilməsinə lüzum yoxdur".

**H.Paşayevin sözlərinə görə, indi də bu təşəbbüs fərqli formada davam etdirilir:** "Ondan sonra biz YAP-ın rəsmi saytında bunları müsahibə şəklində davam etdirməyə başladıq. Yəni artıq onların mətbuat konfransları yox, mütəmadi olaraq, həmçinin operativ qaydada onların rəsmi saytda müsahibələri yayımlanır. Cəmiyyəti, KİV-ləri maraqlandıran suallarla müsahibələr təşkil edilir və oxucuların, vətəndaşların ixtiyarına təqdim edilir. Mətbuat konfranslarından hər hansı tərəfin imtinasından söhbət getmir".

❑ RÖYA

# Torpaq ayağımızın altından qaçır, bəs səbəb...

## Ekspert: "Sürüşmə zonalarının sayı gələn il də arta bilər"



**Azərbaycanda torpaq sürüşməsi zonaları çoxalır. Məlumatlara görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları tərəfindən ilin əvvəlində 50 sürüşmə zonası müşahidə altında tutulurdusa, hazırda onların sayı 70-ə çatıb. Necə deyərlər, getdikcə torpaq ayağımızın altından qaçır və yararlı ərazilərin sahəsi daralır.**

Bu halın yaranmasının müxtəlif səbəbləri qeyd olunur. Mütəxəssislərə görə, Azərbaycanda sürüşmə zonaları əsasən Böyük Qafqazın cənub və şimal-şərq yamaclarında, Kiçik Qafqazın şimal-şərqində, Naxçıvan Muxtar Respublikasının və Talış dağlarının aşağı və orta hissələrində, iri çay hövzələrində yayılıb. Torpaq sürüşməsi Azərbaycanın 400-500 metr mütləq yüksəkliyindən başlayaraq orta dağlığın yuxarı hissəsinədək, həmçinin Xəzər dənizi sahili boyunca da inkişaf edib. Sürüşmə zonaları ölkə ərazisinin alçaq və orta dağlıq qurşaqlarında əhalinin məskunlaşdığı və təsərrüfatların inkişaf etdiyi çay hövzələrində, avtomobil yollarının kənarlarında daha geniş yayılıb.

**Məsələ ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov "Yeni Müsavat"a bildirdi ki, son zamanlar sürüşmələrin miqyasının artmasına səbəb olan amillərdən biri yağıntıların normadan artıq düşməsidir:** "İkinci amil ondan ibarətdir ki, əhali artdıqca, fərdi yaşayış evlərinin də sayı çoxalır. Yeni tikintilər ərazilərə müdaxilə artır. Müdaxilə dedikdə onu nəzərdə tuturuq ki, insanlar ev tikib yamacı kəsirlər, nəticədə proses intensivləşir və uçqun, sürüşmə olur. Bakıda isə subasmaların əsas səbəbi odur ki, kanalizasiya sistemi yoxdur. Bütün sular gölə axıdılır. Nəticədə isə qrunt sularının səviyyəsi qalxır və subasmalar baş verir. Son zamanlar yağışların intensiv yağması isə Bakıda da bu prosesi tətikləyib. Bir var, qədimi sürüşmə əraziləri, hansılar ki, o ərazilər atlasda qeyd olunub, bir də var, sonradan əmələ gələnlər. Yeni əmələ gələnlərin çoxu qeyd etdiyimiz səbəblərlə bağlıdır".

**Mütəxəssis deyir ki, təbii prosesləri öncədən proqnozlaşdırmaq çətindir:** "Təxmini deyilir ki, filan ərazi qədimi sürüşmə sahəsidir və ora müdaxilə olunmasın, tikinti aparılmasın. Belə bir qərar da qəbul olundu ki, sürüşməyə meylli ərazilərdə tikinti aparmaq üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, eyni zamanda Fövqəladə Hallar Nazirliyinin xüsusi rəyi olmalıdır. Layihə də bu rəyə uyğun olaraq hazırlanmalıdır ki, gələcəkdə sürüşmə baş verərsə, nisbətən də olsa onun qarşısı alınsın. Onu da qeyd edim ki, vətəndaşların özlərindən də çox şey asılıdır. Tövsiyə edirəm ki, insanlar ilk olaraq təbiətə çox müdaxilə etməsinlər. Harada gəldi, yamacı kəsməsinlər. Suvarma apardıqları zaman isə bunu fontan şəklində etməsinlər. Bütün bunların hamısı gələcəkdə həmin ərazidə fəsadların yaranmasına səbəb olur".

**Əziz Qaralov son zamanlar nazirliyin bəhs etdiyimiz problemlə bağlı gördüyü işlərdən də danışdı:** "Nazirlik məsələ ilə bağlı sürüşmə ərazilərində monitorinqlər aparır. Nəticədə isə hər ayın sonunda respublikada baş verən sürüşmələr, sürüşməyə meylli ərazilər haqqında xüsusi bülletenlər hazırlanır və Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq sərəncamа uyğun olaraq, 11 müxtəlif dövlət sturukturlarına göndərilir. Bu günə olan mövcud sürüşmələrin atlası tərtib olunub. Zonaların sərhədləri və koordinatları həmin atlasda öz əksini tapıb. Atlas Nazirlər Kabineti tərəfindən təsdiq olunaraq, müvafiq icra sturukturlarına da paylanıb. Gələcəkdə həmin ərazilərdə hökumət hansısa layihə üçün yer ayıran zaman həmin zonaları nəzərə almalıdır".

**Ə. Qaralov 2017-ci ildə sürüşmə zonalarının vəziyyəti ilə bağlı da proqnoz verib:** "2016-cı ilin əvvəli ilə sonunu müqayisə etdikdə, sürüşmə zonalarının sayının artması müşahidə olunur. Gələn il üçün bunu öncədən proqnozlaşdırmaq çətindir. Lakin deyə bilərik ki, ölkə ərazisində sürüşmə zonalarının sayı gələn il də arta bilər. Misal üçün, Şamaxı ərazisində, Mədrəsə kəndində 20 hektar ərazi pay torpaqları idi. Həmin torpaqlar birbaşa kəndin sərhədlərindən başlayır. İndi son məlumatlara baxırıq ki, ərazi böyüyüb. Təxminən 40 hektara yaxın ərazini əhatə edir. Həmin bölgədə sürüşmənin səbəbləri Bakıdan fərqlidir. Orada ərazi seysmoloji cəhətdən xeyli fəaldır. Bəllidir ki, Şamaxıda seysmik ocaqlar çoxdur. Zamanında da Şamaxı-İsmayıllı bölgəsində çoxsaylı zəlzələlər olub. Nəticədə sular da üzə çıxır. Baxırsan ki, ərazidə göl əmələ gəlib. Bütün bunlar tektonik çatlardan çıxır. Sürüşməyə də səbəb həmin ərazidə ilk olaraq budur. Torpaq sudan doyur və ağırlığı saxlaya bilməyib, relyef istiqamətində öz yerini dəyişir. Bakıda isə əsas səbəb qrunt sularıdır. Konkret olaraq Bakıda Binəqədi ərazisində, Şuşa şəhərciyində, Binə yaxınlığında, Masazırda, Məhəmmədi gölündə son zamanlar subasmalar artıb".

❑ **Əli RAİS**



## Xəzər rayonunda dəhşətli qətl və intihar

**Bakıda intihar hadisəsi baş verib. Xəzər Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə rayonun Zirə qəsəbəsi, Müslüm Moqamayev küçəsi 93 ünvanında qeydə alınıb. Həmin ünvanda yaşayan 16 yaşlı Firuz Kamal oğlu Məmmədov evin hamamında özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.**

Məlumata görə, F. Məmmədov orta məktəb şagirdidir. O, Zirə qəsəbəsində yerləşən 241 saylı orta məktəbin 11-ci sinfində oxuyurmuş.

Xəzər rayonunda daha bir dəhşətli hadisə baş verib.

Xəzər Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə Buzovna qəsəbəsi Heydər Eyvazov küçəsində yerləşən Vərəm Dispanserində olub.

Dispanserdə tibb bacısı işləyən 1971-ci il təvəllüdlü Fərqanə Bağır qızı Mürsəlova qızının əri, 1992-ci il təvəllüdlü Elçin Arzuman oğlu Hüseynov tərəfindən bıçaqlanaraq öldürülüb.

İlkin məlumata görə, hadisəni törədən Elçin Hüseynovla həyat yoldaşı arasında mübahisə yaranıb, həyat yoldaşı evi tərk edərək anasıgilə gedib.

E. Hüseynov dispanserə gələrək, F. Mürsəlovadan qızını geri göndərməsini tələb edib.

F. Mürsəlova isə E. Hüseynovun tələbinə rədd cavabı verib. Tərəflər arasında yaranan mübahisə qadının qətli ilə nəticələnib.

E. Hüseynov saxlanılıb.



## 20 yaşlı qız dəm qazından boğularaq ölüb

**Bakıda dəm qazı daha bir nəfərin həyatına son qoyub. Sabunçu Rayon Prokurorluğundan APA -ya verilən məlumata görə, hadisə Balaxanı qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 20 yaşlı Pərvanə Ədalət qızı Xəlilova yaşadığı evdə dəm qazından boğularaq ölüb.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 291 (6612) 29 dekabr 2016



# Psixoloq bayram ərəfələri artan intiharların səbəbini izah etdi

## Elnur Rüstəmov: “Bu, bayramda da həyatlarında bir yenilik edə bilməmələri düşüncəsindən qaynaqlanır”

**Son bir neçə gündə intiharların sayında yenə də artım müşahidə edilir. Ümumiyyətlə, statistika göstərir ki, bayram ərəfəsində və bayramdan sonrakı ilk günlərdə intiharların sayında artım müşahidə edilir. Təbii ki, bunun da səbəbləri var.**

Hər kəs bayramda nəyin bahasına olursa-olsun, uşaqlarına hədiyyə almaq, bütün nemətlərin yer aldığı süfrə açmaq istəyir. Ancaq təəssüf ki, buna nail ola bilməyənlər də var. Marketlərə baş çəkərkən də bunu sezmək mümkündür. Apardığımız müşahidə hazırkı vəziyyətdə insanların maddi baxımdan olduqca acınacaqlı durumda olduğunu deməyə əsas verir. Bayram axşamında gözəl bir süfrə açmağı arzulayan hər kəs əlində siyahı ilə marketlərə üz tutsa da, o siyahıda olanların az bir qismini ala bilir. Bu da istər-istəməz insanları depressiyaya salır.

Maraqlıdır, bayramlar öncəsi və sonrakı ilk günlərdə insanların intihar etməsi sırf sosial problemlərdən, maddi sıxıntılardan qaynaqlanır, yoxsa bunun başqa psixoloji səbəbləri də var?

**Psixoloq Elnur Rüstəmov bayram ərəfəsində və bayramdan sonra intihar hallarının artmasının sırf insan faktoru ilə bağlı olduğunu dedi:** “Viktor Franklın "İnsanın məna axtarışı" adlı kitabı var. Frankl faşistlərin dönəmində düşərgələrdə müşahidə aparır ki, bayramdan sonra ölüm halları artır. Ona maraqlı gəlir ki, necə olur ki, bayramdan sonra kütləvi ölüm, intihar halları baş verir.



Ortaya belə bir qənaət çıxır ki, insanlarda həmişə belə bir inam olur ki, onlar bayrama qədər öz həyatlarını dəyişəcəklər. O düşərgədə də olanlar düşünürdü ki, bayrama qədər müharibə bitəcək və onlar ailələrinin yanına qayıdacaqlar. Bundan sonra da ruh düşkünlüyü yarandı və kimlərsə özünü öldürdü. Ümumiyyətlə, bayramlarda insanlarda bir hesabat olur, “mən həyatla, yaşayışla bağlı nə əldə etdim?” deyə... Məsələnin bu tərəfi insanlar üçün çox böyük əhəmiyyət kəsb edir. Tutaq ki, kimsə fikirləşirdi ki, mən bu ili ailəmlə qeyd edəcəyəm. Ancaq ayrılıblar. Kimsə rəhmətə gedib və yaxud da hansısa xəstəlikdən dolayı onlar bir yerə yığışa bilmirlər. Burada söhbət insan faktorundan gedir. Biz intiharları daim aparıb sosial vəziyyətin aşağı olmasına, insanların öz hüquqlarını bilməməsinə, insanların istədiyini ala bilməməsinə bağlayırıq. Bu, düzgün yanaşma deyil. Söhbət insan amilindən gedir. Biz insan faktorunu qabartmalıyıq. İnsan hesabat verir ki, bu bayramda da mən həyatımda bir yenilik, dəyişiklik edə bilmədim. Bu da insanın ruhsal sferasına, psixoloji durumuna təsir edir. İnsan depressiyaya düşə, gərgin ola, özünə qapana bilir. Özünə qapanandan sonra intihar halları yaranır. İnsan özünə qapananda onun immuniteti zəifləyir. İmmunitet də zəiflənəndə insanı xəstəlik daha tez tapır. Fiziki durum qeyri-qənaətbəxş olanda əlbəttə ki, bunlar psixoloji duruma təsir göstərəcək. Yəni bu zəncirvari bir prosesdir".

**Psixoloq bayramlarda intihar, depressiya hallarının çoxalmasının bir səbəbinin də insanların bu bayramda da həyatlarında bir yenilik edə bilməmələri düşüncəsindən qaynaqlandığını dedi:** “Yəni bunun kökündə bu faktor dayanır. Bir problem də intiharlarla bağlı araşdırmanın, tədqiqatın aparılmaması ilə bağlıdır. Bir faktı götürürük ki, banka borcu vardı, verə bilmədi və yaxud da kasıb idi, vəfat etdi. Bu göstərici deyil. Varlı adam intihar edəndə xəbər mətbuata çıxmır. Bir daha qeyd edim ki, biz cəmiyyətə, dövlətə, dövlətçiliyə xidmət etmək istəyiriksə, yaxşı bir araşdırma getməlidir. Bu intiharlar sosial faktorla birbaşa bağlı deyil. Dünya praktikasına baxsaq görərik ki, ən çox intiharlar inkişaf etmiş, əhalinin iqtisadi durumu yaxşı olan ölkələrdədir. Deməli ki, intiharlar iqtisadi, sosial faktorla bağlı deyil. Söhbət insan amilindən gedir. İnsanın yeni dövrə uyğunlaşmağa gücü çatmır. Ailədaxili gərginliklər, insanın özünü tapa bilməməsi, informasiya əsrində, qloballaşan dünyada yaşaması, zamanla ayaqlaşa bilməməsi, qardaşın qardaşdan uzaqlaşması, atanın anadan uzaqlaşması və sairə bunların hamısı insana təsir edir. Bu təsir etdiyi təqdirdə, insan depressiyaya düşə, həyatla vidalaşmaq istəyə bilər. Şüuraltı düşüncə budur”.

❑ Günel MANAFLI

# 2017-ci ilin ciddi sınaq ili olacağı proqnozları

## Növbəti ilə nə ilə gedirik?

**2016-cı ilin başa çatmasına, 2017-ci ilə sayılı günlər qalır. Bəs Azərbaycan 2017-ci ilə nə ilə gedir? Pessimizm, yoxsa optimizm üçün daha çox əsaslar var?**




**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, 2016-cı il həm qlobal böhranın, həm Azərbaycanın iqtisadi böhranın inkişaf etdiyi bir il oldu. Dünya və Azərbaycan belə bir çətin ildən qalan miraslarla 2017-ci ilə daxil olacaq. Gələn il dünyanın və Azərbaycanın gələcək taleyinin həlledici ili kimi tarixə düşəcək: “Biz istəyirik ki, 2017-ci il xalqımızın həyat şəraitinin yaxşılaşdığı, Qarabağ probleminin həll olunduğu il olsun. Lakin təəssüf ki, bu gün ölkə növbəti ilə bu iqtisadi, siyasi problemlərin, Qarabağ məsələsinin həll olunacağı imkanlarının ortada olmadığı vəziyyətdə gedir. Azərbaycan növbəti ilə o dərəcədə böyük problemlərlə daxil olur ki, qarşıdakı ilin ağır olacağını söyləməmək mümkün deyil. Həm dünyada baş verən hadisələr, həm beynəlxalq ekspertlər gələn ilin dünyada vəziyyətin daha da ağır olacağını proqnoz edirlər. Azərbaycana isə bir tərəfdən dünyadakı qlobal iqtisadi böhran, neftin qiymətinin aşağı düşməsi, bir tərəfdən isə yarıtmaz hökumətin, korrupsiyadan əl çəkə bilməyən məmur ordusunun iş başında olması xüsusilə ciddi problemlər vəd edir. Azərbaycan yeni ilə bu cür ciddi problemlərlə qədəm qoyur. Azərbaycan üçün Qarabağın işğalı problemindən sonra ən böyük problem məhz korrupsioner məmurlar, yarıtmaz, islahatları həyata keçirmək imkanında olmayan hökumətin mövcudluğudur. Ölkəmiz təəssüf ki, bu problemlə 2017-ci ilə gedir. Manatın bugünkü ucuzlaşmasının, ölkədə dollar qıtlığının, elektrik enerjisinin, qazın qiymətlərinin bahalaşmasının fəsadlarını növbəti il daha ciddi şəkildə yaşayacağıq. Bu il atılan yanlış addımların nəticələri gələn il olacaq. 2017-ci il Azərbaycana çoxlu sürprizlər gətirəcək. Odur ki, gələn il həm dövlətimiz, həm xalqımız, həm hakimiyyət üçün çox ciddi sınaq ili olacaq”.

**S.Cəlaloğlu onu da qeyd etdi ki, ölkə başçısının bu yaxınlarda imzaladığı, demək olar ki, bütün sahələri əhatə edən yol xəritələrinin effektli həyata keçirilməsi üçün onu həyata keçirən islahatçı komandanın olması zəruridir:** “Bu yol xəritələri gözəl layihələrdir. Amma onları həyata keçirən komanda, mütəxəssislər, resurslar olmalıdır. Əgər bunlar olmayacaqsa, on illərdir korrupsiyaya bulaşmış, indi də bu cür əməllərindən əl çəkə bilməyən nazirlərlə, məmurlarla, komanda ilə ən yüksək səviyyədə proqramları belə həyata keçirmək mümkün olmaz. Yol xəritələri o zaman ölkəni böhrandan xilas edə bilər ki, onu yeni islahatçı, müasir düşüncəli komanda həyata keçirsin. Hazırkı məmurlar komandasının işinin nəticəsi ölkənin düşdüyü indiki böhrandır. Onlar indi böhranı necə aradan qaldıra bilərlər? Onları dəyişmək lazımdır”.

**Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının sədri, iqtisadçı Qubad İbadoğlu isə bildirib ki, Azərbaycan 2017-ci ilə 2008-ci ildən üzü bəri büdcələr arasında dollar ifadəsində ən kiçik dövlət büdcəsi ilə gedir:** “Dövlət büdcəsinin gəlirləri 16 milyard 255 milyon manat, xərcləri 16 milyard 900 milyon manat məbləğində təsdiq olunub. Hesablamalar göstərir ki, 2017-ci ilin dövlət büdcəsi 2008-ci ildən üzü bəri büdcələr arasında dollar ifadəsində ən kiçiyidir. Eyni zamanda büdcənin dollar ifadəsində adambaşına düşən xərcləri qonşu Qafqaz ölkələrindən belə aşağıdır.

Büdcə gəlirlərinin yarıdan çoxunu 2005-ci ildən bəri ilk dəfə qeyri-neft sektorundan daxilolmalar hesabına təmin etmək nəzərdə tutulur. Bu isə vergi orqanları qarşısında ciddi vəzifələr qoyur. Artıq ilin sonudur. Yaxın günlərdə cari ilin büdcəsi tam xərclənərək boşalacaq, həm də büdcədə kəsir yaranacaq. Gözləntilərə görə, 2016-cı ilin büdcə kəsirinin məbləği 1 milyard manatdan çox olacaq, bu da Azərbaycanın büdcə tarixində ən böyük kəsir hesab oluna bilər. Növbəti ilə həm də böyük büdcə kəsiri ilə gedir ölkə.

Beləliklə, yeni büdcədə əsas yük qeyri-neft bölməsinin üzərinə düşəcək. Milli iqtisadiyyatın ən çox problemləri isə bu sektorda müşahidə edilir. Qeyri-neft ümumi daxili məhsulunda tənəzzül 6 faizə yaxınlaşır. Bu il ərzində qeyri-neft ixracat potensialı ötən ilin eyni dövrü ilə müqayisədə dörddə üçünü saxlaya bilib, idxal da ötən illə müqayisədə azalıb. Mədaxilin 14 faizini təşkil edən hüquqi şəxslərin mənfəət vergisi 228 milyon manat azalıb, digər daxilolmalar üzrə azalma isə 1 milyard 960 milyon manat olub.

Bununla yanaşı, növbəti il ərzində iş yerlərinin ixtisarının çoxalması, əmək haqlarının aşağı salınması hesabına fiziki şəxslərin gəlir vergisi; zərərlə işləyən müəssisələrin sayının artması və rentabelli müəssisələrdə mənfəətin azalmasına görə hüquqi şəxslərin mənfəət vergisi; idxalın azalmasına görə əlavə dəyər vergisi və gömrük rüsumları; neft hasilatında azalmaya görə Dövlət Neft Şirkətinin və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ödənişlərində azalmaların qeydə alınması büdcə mədaxilinin formalaşmasında ciddi çətinlik yaradacaq. Bu, xüsusilə ilin ilk rübündə müşahidə olunacaq".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT

Son səhifə

N 291 (6612) 29 dekabr 2016



## Kasıb hindlinin bank hesabında... milyard rupi

Hindistanın Meratx şəhər sakini baş nazir Narendr Modidən qazandığı milyard rupini necə xərcləməsi ilə bağlı məsləhət istəyib. Bu məbləğdə pul səhvən onun bank hesabında peyda olmuşdu. Şital Yadav adlı şəxs fabrikin qablaşdırma şöbəsində çalışır və ayda 5 min rupi maaş alır. 18 dekabrda bank hesabından pul götürəndə orda milyard rupiyə yaxın vəsait olduğunu görüb. Qadın öz gözlərinə inanmayıb və növbə ilə qonşularından hesabındakı pulun məbləğini oxuyub təkrarlamağı xahiş edib. Soruşduğu hər kəs ona hesabında bu məbləğdə pulun olduğunu təsdiqləyib. Yadav başqa bir bankomata gedərək, bu rəqəmi bir daha təsdiqlədib. Qadın daha sonra banka müraciət edərək bu məsələnin araşdırılmasını tələb edib. İki gün boyunca heç kim onun şikayətinə cavab verməyib. Daha bir neçə cəhdinə də mənfi cavab veriləndən sonra Yadav əri ilə birlikdə hökumətin başçısına bu barədə yazıb. Ər-arvad israr edirlər ki, bu pullar onlara məxsus deyil və ola da bilməz. Bu olayın yanlışlıq olduğunu sübut edən bir başqa məqam isə odur ki, qadına məxsus bank hesabında 50 mindən artıq vəsait saxlamaq mümkün deyil. Qadın hökumət başçısından bu problemin həlli ilə bağlı yardım istəyib.

# Dünyanın ən yaşlı erkək pandası öldü

Çinin Siçuan qəsəbəsində dünyanın ən yaşlı erkək pandası ölüb. "Pan-Pan" ləqəbli pandanın 31 yaşı olub. Heyvan pandaların müdafiə və araşdırma mərkəzində saxlanırdı. 2015-ci ilin sentyabrında panda öz 30 illiyində zoobağın əməkdaşlarından buz heykəlini xatırladan tort hədiyyə alıb. Həmin tortu da kök rəngində rəngləyiblər. "Pan-Pan" 130 dəfə ata olub. Bu ilin oktyabrında isə Honq-Konqda dünyanın ən yaşlı dişi pandası 38 yaşında ölmüşdü. "Tzya-Tzya" ləqəbli panda bütün



dünyada məşhur idi. Hazırda dünyada ən yaşlı panda 36 yaşlı "Basa" ləqəbli pandadır. Bir qayda olaraq, pandalar 30 ilə qədər yaşayırlar.

# Ləyəndə yaşayan qız dünyasını dəyişib

Nigeriyada sağlam bir körpə olaraq dünyaya gələn, ancaq 6 aylıq ikən səbəbi bilinməyən bir şəkildə bədəninin böyüməsi tamamən dayanan və həyatını plastik bir ləyəndə, ailəsinin dəstəyi ilə davam etdirən Rahma Haruna həyatını itirib. Yaşıl rəngli plastik bir ləyənin içində həyatına davam edən, qolları və ayaqları olmamasına baxmayaraq, üzündən gülüşünü heç vaxt əskik etməyən Rahmanı sosial media 10 yaşlı qardaşı Fahadın paylaşdığı şəkillə tanınmışdı. Fotoqraf Sani Maikatanqa instaqramda Rahmanın bir şəklini paylaşaraq ölüm xəbərini verdi. "Daily Mail" qəzetinin xəbərinə görə, həyatını plastik bir ləyəndə keçirməyə məhkum olan Rahmanın bütün fiziki ehtiyaclarını anası qarşılayırdı. Rahmanın atası isə deyib ki, qızı dünyaya gələn gündən onun müalicəsi üçün əlindən gələni edib. Amma iqtisadi çətinliklərlə də mübarizə aparmaq məcburiyyətində qalıb. Eyni vaxtda bir neçə yerdə işləməsinə baxmayaraq, kommunal xərcləri, bank borclarını ödəmək çətin olub.





## Bu meyvəni ancaq qadınlar yeyəcək

"NBC News" xəbər verib ki, genetik olaraq çəhrayı rəngə sahib olan yeni ananas növü artıq satışa çıxarılıb. Bu ananasın içi çəhrayı, xarici görüntüsü sarı, adı isə "Rose"dir. Hər şey "Rose"nin necə satılacağından asılıdır. Çox satılacağı halda, Del Monte bir çox meyvələri də çəhrayı edəcək. Son nəticədə qadınlar üçün böyük bir bazar yaranacaq və bundan da ən çox işbazlar qazanacaq. Amma bu, dünyada qadın haqları müdafiəçiləri tərəfindən də birmənalı qarşılanmayıb. Çünki onlar bununla qadınların hüquqlarının pozulduğunu, onların qüruruna toxunulduğunu, zəkalarının aşağılandığını iddia edirlər. Belə ki, qadınların çəhrayı rəngdə olduğu üçün hər şeyi satın alacağı iddiası onların zəkasına şübhə etməyə bərabərdir. İddia olunur ki, yaxın zamanda "çəhrayı ananas qadınları arıqladır" kimi yalançı xəbərlər də çıxacaq. Bununla da çəhrayı ananasın bazarı daha da böyüyəcək.

## Qoroskop




**QOÇ** - Bir qədər gərgin gün yaşamalı olacaqsınız. Bir tərəfdən maddi durumunuzda baş qaldıran problemlər, digər tərəfdənsə müttəfiqlərinizin başısoyuqluğu hiddətinizi artıra bilər.

**BUĞA** - Vaxtınızın əsas hissəsini məhəbbət amilinə həsr edin. Çünki ulduzların düzümü son vaxtlar sevdiyinizə qarşı soyuqluq etməyinizi bəyan edir. Bu qüsuru aradan qaldırmağa çalışın.

**ƏKİZLƏR** - Bayrama bir neçə gün qalsa da, əsas gücünüzü istirahətə həsr edin. Hər hansı sövdələşmə və ya riskli addımlar mövqeyinizi əks etdirməyəcək. Ən yaxşı variant ürəyinizə yaxın adamlara baş çəkməkdir.

**XƏRÇƏNG** - Əvvəlki üç bürclə müqayisədə ulduzlar sizi daha çox sevindirəcək. Saat 13-dən sonra bir neçə sürprizlə rastlaşacaqsınız. Odur ki, evdə boş-boşuna oturmayın. Sevin ki, seviləsiniz.

**ŞİR** - Yeni əlaqələrə başlamağa dəyər. Əgər gələcək perspektivlərinizə yetişmək istəyirsinizsə, boş dayanmayın. Onu da unutmayın ki, nəzərdə tutduğunuz planlara mane olmaq istəyənlər çoxdur.

**QIZ** - Saat 14-ə qədər hisslərinizi cilovlayıb mübahisəli situasiya yaratmasanız, sonrakı müddəti qənaətbəxş tərzdə başa vura biləcəksiniz. Çoxdan bəri gözlədiyiniz xəbərlər eşidəcəksiniz.

**TƏRƏZİ** - Yeni əməkdaşlıq üçün uğurlu vaxtdır. Ailə-sevgi münasibətlərində də hər şey zövqünüzlə uyğunluq təşkil edəcək. Günün ikinci yarısında şəxsi büdcənizin artacağı ehtimal olunur.

**ƏQRƏB** - Qərarlarınızda qətiyyətli olsanız, hansısa ciddi maneəyə rast gəlməyəcəksiniz. Bu gün kimisə aldatmağa çalışmayın. Günortadan sonra pul sövdələşmələrində iştirakınız uğurlu olacaq.

**OXATAN** - Əvvəlki bürclərlə müqayisədə bu gün yalnız sizin üçün uğurlu səyahətlər gözlənilir. Gərginliyi azaltmaq üçün bu, ən yaxşı vasitələrdən ola bilər. Qazanmaq üçün şansınız da var.

**OĞLAQ** - Gün ərzində qarşılaşacağınız hadisələrin aqibəti çıxardığınız qərarlardan birbaşa asılı olacaq. Odur ki, reallığa obyektiv qiymət verməyə çalışın. Nəzərə alın ki, gün ərzində Ay bürcünüzdə olacaq.

**SUTÖKƏN** - Şəxsi işlərinizdə böyük dönüş yaranmaqdadır. Bu səbəbdən də əzmkarlığınızı artırmağa çalışmalısınız. Qohum-qonşularla münasibətləri yaxşılaşdırmağa səy göstərin. Mülayim davranın.

**BALIQLAR** - Yeni əlaqələrə başlamaq, işgüzar sövdələşmələri artırmaq gələcək perspektivləriniz üçün səmərəli ola bilər. Həmkarlarınızla dil tapın, gecəni isə mütləq öz evinizdə keçirin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadın sürücülər kişilərdən daha təhlükəli imiş



Britaniyanın Holdmits Universitetinin mütəxəssisləri apardığı uzun araşdırmalar nəticəsində müəyyən ediblər ki, qadın sürücülər yollarda özlərini kişilərdən qat-qat aqressiv aparır. Bu barədə yerli KİV-lər yazıb. Alimlərin sözlərinə görə, qadın sürücülərin 14%-i səs siqnallarını daha kəskin qəbul edir və piyadaların keçməsinə kişilərə nisbətən 13% daha çox qıcıqlanırlar. Buna görə də onların yollardakı davranışları daha təhlükəlidir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750